**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# 90-Cİ İLLƏRİN BİRİNCİ YARISINDA AZƏRBAYCAN RUSİYA-İRAN-TÜRKİYƏ MÜNASİBƏTLƏRİNDƏ

İxtisas: 5503.02 – Vətən tarixi

Elm sahəsi: Tarix

İddiaçı: **Səfərov Pərviz Şahin oğlu**

Tarix üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI-2024**

Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin tarix və coğrafiya fakültəsinin **"Ümumi tarix və tarixin tədrisi texnologiyası"** kafedrasında yerinə yetirilmişdir.

Elmi məsləhətçi: Tarix elmləri doktoru, professor
**Oqtay Balaqədaş oğlu Sultanov**

Rəsmi opponentlər: Tarix elmləri doktoru,professor
**Havva İsa qızı Məmmədova**

Tarix elmləri doktoru, professor
**Xaqani Məmməd oğlu Məmmədov**

Tarix elmləri doktoru, professor
**İsmayıl Məhəmməd oğlu Məmmədov**

Tarix elmləri doktoru
**Ədalət Qasım oğlu Qasımov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Dövlət Universitetinin Tarix fakültəsi nəzdində fəaliyyət göstərən ED 2.20. Dissertasiya şurası

Dissertasiya Şurasının sədri: Tarix elmləri doktoru, professor
**İbrahim Xudaverdi oğlu Zeynalov**

Dissertasiya Şurasının elmi katibi: Tarix üzrə fəlsəfə doktoru,dosent
**Kəmalə Telman qızı Nəcəfova**

Elmi seminarın sədri: Tarix elmləri doktoru, professor
**Fazil Eynulla oğlu Baxşəliyev**

# DİSSERTASİYA İŞİNİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi**: 1985-ci ilin aprelindən Sovetlər ölkəsinə rəhbərlik etməyə başlayan M.S.Qorbaçovun təşəbbüsü ilə hazırlanmış və kommunist partiyasının rəhbərliyi ilə həyata keçirilməyə başlanmış yenidənqurma siyasəti iflasa uğradı. Yenidənqurma siyasəti sosial gərginlik, siyasi qeyri-sabitlik və millətlərarası ziddiyyətlər dalğası yaratmaqla ölkəni çıxılmaz vəziyyətə saldı. Etnik ziddiyyətlər ocaqları xəritəsinin genişlənməsi Sovet İttifaqının dezinteqrasiyası prosesini xeyli sürətləndirdi. 1991-ci ilin avqust böhranı yenidənqurmanın sonunu gətirdi. 1991-ci ilin dekabrında Rusiya, Ukrayna və Belorusiya prezidentləri – B.Yeltsin, L.Kravçuk, S.Şuşkeviç SSRİ-nin süqutunu elan etdilər.

Soyuq müharibə dövrünün başa çatması və SSRİ-nin dağılması regionda tamamilə yeni şərait yaratdı. Qloballaşma prosesinin gücləndiyi bir vaxtda beynəlxalq – ABŞ, və regional – Rusiya, İran və Türkiyənin maraqlarının mövcud olduğu bir region kimi Cənubi Qafqazı "geosiyasi məkan" adlandırmaq olar.

Azərbaycanın regionda yeganə təbii müttəfiqi sayılan Türkiyə ona beynəlxalq hüquq normaları çərçivəsində yardım göstərərək, imkan daxilində onun təbii sərvətlərinin istismarında iştirak edərək öz yanacaq problemini həll etməyə, Qərbin neft şirkətlərinin iştirakı ilə hasil edilən Azərbaycan neftini dünya bazarına çıxaran neft kəmərini öz ərazisindən keçirməyə çalışaraq, onu iri dövlətlərə istənilən vaxt siyasi təsir etmək vasitəsi kimi əlində saxlamağa, öz strateji əhəmiyyətini artırmağa, eləcə də Azərbaycan ərazisi vasitəsi ilə Orta Asiyaya çıxmağa can atırdı.

Rusiya keçmiş SSRİ ərazisində nüfuz dairəsindən əl çəkmək istəmədiyi və Azərbaycanı postsovet ölkələrinin bir coxunu birləşdirən Müstəqil Dövlətlər Birliyinə daxil olmağa məcbur etmək niyyətində olduğu üçün əsas təzyiq vasitəsi olan və 1988-ci ildən ona sırınmış Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin qarşısını almaqda maraqlı deyildi

Azərbaycanda böyük maraqları olduğunu açıq bildirən və buradakı dini radikalizmə meylli qüvvələrin dəstəyi ilə mövqe qazanib Rusiyanın və Türkiyənin təsir dairəsini azalmağa çalışan İran Qarabağ

məsələsinin dinc yollarla həllində vasitəçi ölkələrdən biri olmağa cəhd edirdi. İran Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında özünün ilk vasitəçilik təşəbbüsünü 1992-ci ilin martında irəli sürdü. Lakin razılaşmanın mürəkkəbi qurumamış mayın 8-də erməni silahlı qüvvələri Şuşanı, mayın 18-də isə Laçını işğal etdilər.

Azərbaycanın beynəlxalq münasibətlərində son dərəcə böyük diqqət tələb edən və mürəkkəbliyi ilə seçilən Rusiya - İran - Türkiyə geosiyasi üçbucağı ətrafında formalaşan xarici siyasət düşünülmüş surətdə inkişaf etdirilməli idi. Müstəqil Azərbaycan Respublikasının ənənəvi geosiyasi üçbucaq ilə siyasi və iqtisadi münasibətlərin maliyyətinin tədqiqi, onun milli və strateji maraqlara nə dərəcədə uzlaşdığını şərh edərək təhlilini vermək dissertasiyanın aktuallığını şərtləndirən amildir.

Tədqiq işində SSRİ-nin süqutu ərəfəsində baş verən hadisələrə qismən toxunaraq, əsas diqqətini 1991-1995-ci illərin hadisələrinə yönəltmişdir. Müasir Azərbaycan tarixində ən çətin, ziddiyyətli, eyni ölkə üçün çox taleyüklü hadisələrlə zəngin olmuşdur. İlk aylarından başlayaraq Qarabağ münaqişəsinin həlli istiqamətində baş verən siyasi-diplomatik və hərbi-strateji uğursuzluqlar, qısa müddətdə iki dəfə hakimiyyət dəyişikliyinə səbəb olan 1992-ci il may, 1993-cü il iyun hadisələri, ölkənin ərazisinin 20 faizinin işğalı ilə nəticələnən ictimai-siyasi və sosial-iqtisadi böhran, nəinki Rusiya və İranla, hətta Türkiyə ilə yaranmış problemlər, Heydər Əliyevin hakimiyyətə qayıdışı, tarazlaşdırılmış siyasətə keçid, respublika daxilində və xaricindəki antimilli qüvvələrin iki dəfə dövlət çevrilişi etmək cəhdləri, nəhayət 1995-ci ildən ölkədə siyasi sabitliyin bərqərar olmasından sonra uğurla həyata keçirilən daxili və xarici siyasət, neft strategiyası və s. hadisələr tədqiqatın xronoloji çərçivəsini əhatə edir.

Mənbə və ədəbiyyatların tədqiqi və təhlili göstərir ki, Rusiya, İran və Türkiyənin Qafqazda və Azərbaycandakı maraqlarının ayrı-ayrı məqamları, müəyyən aspektləri kifayət qədər öyrənilmişdir. Problemlərə müxtəlif prizmalardan yanaşılsa da, müasir dövr Qafqaz strategiyasının tam tərkibi, geniş mahiyyəti, maraqların təmin edilməsi uğrunda apardıqları diplomatik-siyasi fəaliyyət Azərbaycanda XIX əsrin 90-cı illərin əvvəllərində - ölkəmizin müasir tarixində ən

ziddiyyətli və keşməkeşli dövründə - baş verən ictimai - siyasi hadisələr fonunda kompleks şəkildə araşdırılmamışdır. Məhz buna görə problemin Azərbaycanda dərindən öyrənilməsi elmi və siyasi baxımdan olduqca aktualdır. Bu problem belə şəkildə Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq tədqiq edilir.

Qarşıya qoyulan vəzifələrin yerinə yetirməkdən ötrü çoxlu mənbə və ədəbiyyat elmi dövriyyəyə cəlb edilmişdir. Ayrılıqda olaraq Rusiyanın, İranın və Türkiyənin bölgədəki strateji maraqlarının istiqamət və xüsusiyyətlərini əks etdirən, bu ölkələrin Azərbaycanla münasibətlərinin siyasi, iqtisadi, hərbi, sosial, mədəni tərəflərini tarixi-siyasi baxımdan təhlil edən elmi məqalələr, dissertasiyalar, monoqrafiyalar mövcuddur. Adı çəkilən dövlətlərin bölgədəki strateji maraqlarını kompleks halda araşdiran tədqiqat əsəri indiyədək yazılmamışdır. Bu baxımdan təqdim olunan dissertasiya işinin aktuallığı və müasir tələblərə cavab verməsi şübhə doğurmur.

Tədqiqata cəlb olunan mövzunun müxtəlif məsələlərinə ümumiyyətlə, Azərbaycan Respublikasının 90-cı illərdəki beynəlxalq vəziyyətinə, xarici və daxili siyasətinə, dünyabirliyi ölkələri ilə münasibətlərinə kifayət qədər iri həcmli fundamental tədqiqatlar[1], analitik materiallar[2], məqalələr[3] həsr olunmuşdur.

---

[1] Qasımlı M.C.Azərbaycan Respublikasının xarici siyasəti 1991-2003:[2 cilddə] /M.C.Qasımlı.Bakı:Mütərəcim,2015,1c-648s.2c-,640s., ,Qaraşova, S.A. ABŞ-Rusiya:Postsovet məkanı uğrunda mübarizə/S.A.Qaraşova.-Bakı:Səda-2018.-408s.

2 Abdullayev Ə.İ.Erməni təcavüzü,acı faktlar,fəlakətli nəticələr/Ə.İ.Abdullayev-Bakı:İqtisad Universitetinin nəşri.-2003,-114 s.,Azərbaycan-Türkiyə əlaqələri mətbuat səhifələrində (1990-1991)/red:-Bakı:OLNPKT,-2018.-!60s Haciyev, H.B.Xəzər regionu dövlətlərinin hərbi təhlükəsizliyi:beynəlxalq hüquq prizmasında/H.B.Hacıyev.-Bakı:Zərdabi nəşr MMC,-2022.-168s.,.Aras O.N.Azerbeycanın Hazar ekonomisive strajesi/O.N.Aras-Istanbul:Der yayım-ları.2001,-298

3.Abdullayev R. Moskva-Ankara yaxınlaşması: səbəblər və reallıqlar // – Bakı: Region plus, – 2006. № 1, – s.35-39.,Balayev İ.M.Azərbaycan Respublikasının neft strategiyası və dövlət müstəqilliyinin mhkəmləndirilməsi //-Bakı.Tarix,insan və cəmiyyət.ADPU,2019 №4(27)-s.113-123.,Kərimova V.T.Erməni məsələsinin yaranmasında İngiltərənin rolu məsələsi müasir türk tarixşünaslığında.//-Bakı:Azərbaycan Milli EA Tarix İnstitutu,Elmi əsərlər,-2019,№78.-s.90-100.

Azərbaycan alimlərindən Ə.Həsənovun, O. Sultanovun, Ə. Məmmədovun, A.Abbasbəylinin, M.Qasımlının,E.Nəsibovun, Ə.Əhmədovun, P.Dərabadinin, N.Şakirzadənin, Ç.Sultanovun[4] əsərlərində müəlliflər Azərbaycanın Rusiya, İran, Türkiyə və digər dövlətlərlə strateji əməkdaşlığının iqtisadi, siyasi, hərbi amillərini izah etmiş, tədqiq olunan problemlərin ayrı-ayrı tərəflərinə dair araşdırmalar aparmış, elmi-nəzəri fikirlər söyləmişlər. Bu tədqiqatların heç birində Azərbaycan onu əhatə edən ənənəvi geosiyasi üçbucağın – Rusiya, İran və Türkiyənin – mərkəzində duran mühüm geopolitik faktor kimi hər üç regional gücləri ilə münasibətlərdə optimal siyasət quran subyekt kimi xüsusi təhlil edilməmişdir. S.Seyidovanın, K.Ruitənin, A.Mirzəzadənin, V.Ağamalıyevanı[5] kitabları tədqiq olunan dövrdə baş verən hadisələri, Qarabağda azərbaycanlılara qarşı cinayətləri təsvir

---

4. Abbasbəyli, A.N. XX yüzilliyin sonunda Türkiyə-Azərbaycan münasibətləri (1993-1998-ci illər) / A.N. Abbasbəyli, A. Tayfun – Ankara, – 1999. – 226 s., , Həsənov.Ə.M.Azərbaycanlılara qarşı etnik təmizləmə və soyqrım siyasətinin mərhələləri/Ə.M.Həsənov.-Baki:Zərdabi LTD,-2017.-400s,Sultanov O.B.80-ci illərin sonu,90-cı illərin əvvəllərində Azərbaycanda siyasi mübarizə/ O.B.Sultanov.Bakı:Maarif,-1995,-232s.QasımovM.C.Azərbaycanın xarici siyasəti(konsepsiya məsələləri)/M.C.Qasımov.-Bakı:Mütərcim,-1997,-124s., Məmmədov, Ə. Müstəqil Azərbaycan dövlətinin bərpası və möhkəmləndirilməsi uğrunda mübarizə (80-ci illərin sonu- 1997-ci il) /Ə. Məmmədov. – Bakı: Elm, – 1999. – 669 s.Nəsibov,E.M.ABŞ və Türkiyənin Qafqaz geosiyasi regionunda strateji maraqları və Azərbaycan Respublikası/E.M.Nəsibov.-Bakı:Çıraq,-2006., Əhmədov Ə,Azərbaycanın beynəlxalq münasibətlərində türkdildövlətlər(XXəsrin 90-cı illəri)/Ə.X,Əhmədov.-Bakı:Elm və təhsil/--2009.-386 s.

Дарабади, П.Г.Геостратегия Каспийского региона и геополитика современности/П.Г.Дарабади.-Баку,Элм,2002.-192с. Шакирзаде Н. Азербайджанская Республика во внешнеполитических и внешнеэкономических процессах (1991-2006) / Н. Шакирзаде. – Баку: Сада, – 2007. –512 с. Султанов, Ч.А. Нефтегазовые стратегии и политика в XXI веке / Ч.А. Султанов. – Баку: Нурлар, – 2008. – 704 с.

5 Seyidova,S.M. Ermənistanın Azərbaycana qarşı təcavüzü və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində beynəlxalq təşkillatların mövqeyi./S.M.Seyidova.-Bakı:ADPU,-2014.-411 s., Ruintən, S.F. Azərbaycan türk dövlətləri ilə siyasi əlaqələr sistemində / S.F. Ruintən. – Bakı:Adiloğlu, – 2005. – 236 s..Mirzəzadə, A.B. Qarabağ düyünü /A.B. Mirzəzadə.– Bakı: Azərbaycan nəşriyyatı, – 2012. – 608 s.,Ağamalıyeva V.Ş.Xocalı XX əsrin müsəlman soyqırımıdır./v.Ş.Ağamaliyeva.-Bakı:Günəş,-2017.-143s.

edərək, bu hadisələrin beynəlxalq aspektlərini və bu dövlətlərinin Qarabağ siyasətinin mahiyyətini qısa şəkildə şərh edirlər. S.Ruintənin monoqrafiyası sırf iki tərəfli əlaqələrə həsr olunaraq tədqiq olunan problemin yalnız bir hissəsini əhatə edir. Y.Mahmudovun, İ.Hüseynovanın kitablarında Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyasında Heydər Əliyevin rolu, Azərbaycanın dünya və region dövlətləri ilə əlaqələri təhlil edilmişdi.Ə.Mehdiyevin kitabında Heydər Əliyevin təməlini qoyduğu Azərbaycanın neft strategiyasından,Xəzər neftinin istsmarı və düyya bazarlarına çixarılmasında Rusiya və Türkiyənin iştirakından danışılır.[6] İ.Zeynalovun Ulu Öndər Heydər Əliyevin həyatının bütün dövrlərini əhatə edən monoqrafiyasında Ümumimilli liderin Azərbaycan naminə fəaliyyətinin bütün mərhələləri zəngin faktik materiallar və sənədlər əsasında geniş şərh edilmişdir. Onun çoxşaxəli ictimai-siyasi və diplomatik fəaliyyəti dolğun surətdə monoqrafiyada öz əksini tapmış, Heydər Əliyev tərəfindən əsası qoyulmuş yeni xarici siyasət konsepsiyasının mahiyyəti açıqlamış, Rusiya, İran, Türkiyə istiqamətində aparılan diplomatik gəlişmələrə də diqqət yetirilmişdir.[7]

Problem şərh edilərkən xarici ölkələrin - Qərb, Rusiya, Türkiyə və İran müəlliflərinin əsərləri də tədqiq edilmişdir. Xarici ölkə mütəxəssislərin böyük əksəriyyətinin fikirləri ona əsaslanırdı ki, Qafqaz və xüsusilə, Azərbaycan Rusiya ilə qərb ölkələri arasında mübarizə zonasıdır.

Türkiyə tədqiqatçısı O.Aras Azərbaycanın neft strategiyası və iqtisadi imkanlarından, gələcək potensialından söhbət açır. Rusiya-Türkiyə münasibətlərinə həsr edilmiş əsərində S. Yanar bu kontekstdə

---

[666] Mahmudov, Y.M. Azərbaycan dövlətçilik və parlamentçilik ənənələri tarixindən / Y.M. Mahmudov. – Bakı: Azərnəşr, – 2001. – 336 s., Mahmudov, Y.M. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti / Y.M. Mahmudov. –Bakı: Nurlan, –2007. –238 s., Mahmudov,Y.M. Heydər Əliyev ideyalarının zəfər yürüşü / Y.M. Mahmudov<a.o]. – Bakı: Təhsil, – 2011.–511 s.,Hüseynova İ.M.Heydər Əliyev və Qafqazda sülh prosesi/İ.M.Hüseynova.Bakı:Çaşoğlu,-2008.-672s.,Mehdiyev, Ə“Əsrin müqaviləsi”:Azərbaycan neft strategiyasının təməl daşı /Ə. Mehdiyev.-Bakı:Turxan NPB,-2014.-248 s.

[7] Zeynalov İ. Azərbaycanın milli dövlətçilik tarixində Heydər Əliyev Zirvəsi: Dahi şəxsiyyətin şərəfli ömür yolu// İ.X.Zeynalov. – Bakı: Füzuyat Nəşriyyatı, - 2024. – 656 s.

Qafqazın yeri, regionda nüfuz uğrunda tarixi mübarizəsi, Türkiyə və Rusiyanın geosiyasi hədəfləri və digər məsələləri təhlil edir. Türkiyənin Cənubi Qafqaz dövlətlərinə münasibətdə strategiyasının mahiyyəti açıqlanır. İ.Balın redaktorluğu ilə nəşr olunan irihəcmli monoqrafiyada müasir dövrdə Türkiyənin Rusiya, İran və Azərbaycanla münasibətlərinin iqtisadi, siyasi, mədəni, hərbi aspektləri faktoloji baza əsasında təhlil edilir. Bundan başqa, Türkiyənin "Avrasiya Strateji Araşdırmalar Mərkəzi"nin mütəxəssislərinin "Stratejik analiz" dərgisində dərc etdirdikləri məqalə və tezislərdə, həmçinin Baskın Oranın əsərlərində. Lakin bu əsərlərdə Rusiya, İran istiqamətləri Türkiyənin strategiyası baxımından təhlil edilmiş və bu münasibətlərdə Azərbaycanın iştirakı məsələlərinə toxunulmamışdır. Digər türk müəlliflərindən, K.Ağacan və b. türk-erməni problemlərinə ətraflı toxunaraq, onun Türkiyənin Qafqaz siyasətinə təsirini qeyd etsələr də, burada da onlar tədqiq edilən problemlərdən yan keçmişdilər [8].

XX-XXI əsrlərin qovşağında Rusiyada Azərbaycana maraq xeyli artmışdır. Rusiyalı alimlər, politoloqlar, jurnalistlər, tədqiqat institutları tərəfindən Qafqaz və Azərbaycan siyasəti, Xəzər dənizinin statusu, regionun energetik problemləri, rus şirkətlərinin regionun enerji ehtiyatlarının istismarında iştirakı perspektivlərinə həsr edilmiş bir sıra maraqlı tədqiqatlar meydana çıxmışdır. Belə tədqiqatlardan növbədə Rusiya Strateji Tədqiqatlar İnstitutunun professor Y.Kojokinin[9] redaktəsi ilə hazırladığı iki cildli toplusunda

---

[8].Yanar, S. Türk-Rus ilişkilerinde gizli güc: Kafkasiya / S.Yanar.–İstanbul: İQ Kültür Sanat Yayıncılık, –2002. –256 s., Bal, İ. XXI yüzyılda Türk Dış Politikası. (Geliştirilmiş 2. Baskı) / İ.Bal. – Ankara: Nobel Yayım Dağıtım, –2004. – 994 s., Baskın, O. Türk dış politikası Kurtuluş savaşından bugüne. Olgular, belgeler, yorumlar: [3 ciltde]/ O.Baskın. –İstanbul:Bağlam Yayımcılıq, c.1.(1919-1980).–2002. – 846 s., Baskın, O. Türk dış politikası Kurtuluş savaşından bugüne. Olgular, belgeler, yorumlar: [3 ciltde] / O.Baskın. – İstanbul: Bağlam Yayımcılıq, c.2.(1980-2001).–2002. – 645 s., Ağacan, K. Bağımsızlığın 10 yılında Gürcistan: ABD-nin Kafkasyadakı kalesi mi? Stratejik Analiz // –Ankara: Aylık uluslararası ilişkiler ve strateji karaştırmalar dergisi, –2001. c.1,ay 11, –s. 32-38.

[9] Независимый Азербайджан: новые ориентиры: [в 2 томах] // под.общ. ред. Е.М. Кожокина. – Москва: Российский Институт стратегических исследований, –т 1.– 2000. – 420 с.

Azərbaycanın daxili siyasi və iqtisadi problemləri, beynəlxalq vəziyəti və xarici iqtisadi əlaqələri (II cild) təhlil olunur. Müəlliflər Azərbaycanın demək olar ki, on illlik dövrünün mühüm problemlərinə toxunurlar. Lakin Azərbaycanın Rusiya, İran və Türkiyənin xarici strategiyasındakı yeni Rusiyanın maraqları və mövqeyi baxımından verilmiş, İran və Türkiyə ilə münasibətlərin quruluşu və inkişafı məsələlərinə qərəzli yanaşma və yalnız etnik-dini cəminə üstünlük verilməsi nəzərə çarpır.

D.Furman hələ 1993-2006-cı illərdə yazdığı tədqiqat işlərində bölgədə siyasi vəziyyətin təhlilini vermiş və Azərbaycanın demokratik inkişafının perspektivlərini onun tarixi inkişafını nəzərə almaqla qiymətləndirmişdir[10]. Müəllif azərbaycanlıların milli şüurunun mədəni və tarixi spesifika ilə şətlənən xüsusiyyətlərini açır. Müəllifin Xalq cəbhəsinin hakimiyyətdə olduğu dövrü Azərbaycanın demokratik dövlət olmaq üçün əldən buraxdığı şans fikri ilə razılaşmaq olmaz. Rusiya müəlliflərindən A.Zveryevin, D.Treninin[11] "Rusiyanın Qafqaz regionunda təhlükəsizlik maraqları və siyasəti" (rusca) adlı əsərində Dağlıq Qarabağ münaqişəsinə dünya dövlətlərinin mövqeyini təhlil edir. K.S.Hacıyevin[12] "Qafqazın geosiyasəti"əsəri (rusca) Qafqazda gedən geosiyasi proseslərin təhlili baxımından xüsusi əhəmiyyətə malikdir. Əsərdə ABŞ, Rusiya, İran, Türkiyə və Avropa dövlətlərinin Qafqaz siyasəti faktoloji materiallar əsasında təhlil edilir, Xəzər dənizinin statusu, neft və qaz hasilatı, Qafqazda islam amilinin və millətçiliyin rolu kimi məsələlər nəzərdən keçirilir. K.S. Hacıyev Rusiyanın xarici siyasətində Rusiyanın xarici siyasətində "cənub" istiqamətinin əhəmiyyətini göstərməyə çalışır və bu zaman Azərbaycanın regionda aparıcı dövlət olmasını əsaslandırır:

---

[10] Фурман, Д.Е. Возвращение в третий мир: грустная история про азербайджанскую демократию // – Москва: Свободная мысль, –1993. –№11, – с.16-28.

[11] Зверьев,А.Этнические конфликты на Кавказе в 1988-1994 гг.,см:Спорные границы на Кавказе//Под.ред.Бруно Коппитерса.-Москва:Весь мир,-1996.-с.10-76., Тренин, Д.В. Интересы безопасности и политика России в Кавказском регионе // Спорные границы на Кавказе. Под ред. Бруно Коппитерса. –Москва: Весь Мир, – 1996. – 103 с.

[12] Гаджиев, К.С. Геополитика Кавказа / К.С. Гаджиев. –Москва : Международные отношении, – 2001. – 432 с.

"*Azərbaycan Qafqazda, daha geniş anlamda isə Qafqaz - Xəzər regionunda formalaşmış qüvvələr nisbətində mərkəzi rol oynayır. Bakı açıq-aşkar həm ümumilikdə regionda, həm də ehtimal olunan Avropa - Asiya nəqliyyat koridorunda aparıcı mövqe tutur*" Rusiyalı alim S.Çernyavskinin[13] monoqrafiyaları digər rus müəlliflərinin əsərləri ilə müqayisədə nisbətən qərəzsiz və ədalətli mövqeyi ilə seçilir. Monoqrafiyada 90-cı illərdə Azərbaycanın xarici siyasətinə tarixi-xronoloji baxımdan yanaşılmış, geosiyasi proseslər təhlil edilmişdir. Azərbaycan-Türkiyə və Azərbaycan-İran əməkdaşlığı və tərəfdaşlığı subyektiv yanaşma nəticəsində inkar edilir. Azərbaycanın haqqında qısa mülahizələr həmçinin O.Kuznetsovu[14], A.Oleynikov[15], Ş.Salamov[16] kitablarında qismən verilsə də, əsasən erməni-azərbaycanlı münaqişəsinə, türk-erməni ziddiyyətlərinə, onun yaranma tarixinə həsr olunmuşdur.

Qərb alimlərindən Amerika politoloqları Z.Bjezinski və H.Kissencer[17] Amerika-Rusiya münasibətləri konteksində Qafqazda formalaşmış geotarixi və geosiyasi mühit dərindən təhlil edilmişdir. Görkəmli politoloqlar qeyd edirlər ki, Türkiyədən dəstək alan müstəqil, türkdilli Azərbaycan Rusiyaya region üzərində monopoliyanı həyata keçirməyə imkan verməz. Lakin bu zaman belə çıxır ki, Azərbaycan ABŞ üçün ancaq Rusiyanı bu təsir imkanından məhrum etmək baxımından maraq doğurur. Maraqlıdır ki, amerikalı tədqiqatçıların fikrincə, əgər Rusiya regionda öz siyasi və iqtisadi

---

[13] Чернявский, С. И. Новый путь Азербайджана / С.И. Чернявский. –Москва: Молодая гвардия, –2002. –350 с. Чернявский, С. И. Десять лет истории Азербайджана. 2003-2013 гг. / С.И. Чернявский. – Москва: Флинта, –2013, 350-400 с.

[14] Кузнецов, О.Ю. Правда о "мифах" карабахского конфликта / О.Ю. Кузнецов. – Москва: Минувшее, – 2013. – 216 с.

[15] Олейников, А.В. Турецкий капкан 100 лет спустя / А.В. Олейников. – СПб: Юпитер, – 2016. –288 с.

[16] Саламов, Ш.Н. Карабах. Война идей. Национализм-терроризм-геноцид / Ш.Н. Саламов. –Тбилиси: Универсал, – 2016. – 274 с

[17]Бжезинский,З.Т.Великая шахматная доска/З.Т.Бжезинский-Москва: Международные отнощении 1999-256. Бжезинский, З.Т. Россия в американской геополитике до и после 2014г.(перевод с анг.)/З.Бжезинский,Г.Киссенджер;ред.О.Селин-Москва:Родина,-2018.-239с.

mövqeyini möhkəmləndirmək istəyirsə, onda "*Azərbaycan Rusiya üçün prioritet məqsəd olmalıdır*".

Böyük Britaniyanın keçmiş baş naziri M. Tetçer də Rusiyanın Qafqaz regionunda rolunu neqativ qiymətləndirir. "Dəmir ledi" boru xətlərinə böyük önəm verir: "*Neft və qaz Qafqazda qarşılıqlı münasibətlərin açarıdır", bu etnik barıt çəlləyində boru xətləri təkcə böyük təbii ehtiyatları olan Azərbaycan səbəbindən deyil, ümumiyyətlə Xəzər regionunun misilsiz dərəcədə zəngin enerji ehtiyatlarının mənimsənilməsi üçün zəruridir"*[18].

İngilis politoloqu G.Uinrou öz əsərində[19] Türkiyənin Qafqaz siyasətinin hərbi-strateji mahiyyətini araşdırmağa çalışır.

Mərkəzi Asiya və Qafqaz İnstitutunun direktorunun müavini, Central Asia Caucasus Analyst jurnalının redaktoru Svante Kornell Qafqaz regionu üzrə tanınmış mütəxəssis, Cənubi Qafqazda etnomilli münaqişələr mövzusunda bir çox monoqrafiya və məqalə müəllifidir[20]. S.Kornell öz tədqiqatlarında Qafqaz regionunda etnomilli münaqişələri, ABŞ, Rusiya, İran və Türkiyənin yürütdüyü siyasəti təhlil edir. Əsərin bir bölməsi Rusiyanın Qafqazda yeritdiyi siyasətə həsr olunmuşdur. Lakin Rusiyanın regiondakı rolu qərb strateqlərinin nəzərindən baxılır və subyektivliyə meyilli olur.

Azərbaycanın ən yeni tarixi üzrə görkəmli polyak tarixçisi Qafqaz və Azərbaycan üzrə mütəxəssis, ABŞ Kolumbiya Universitetinin professoru Tadeuş Svetohovski öz əsərlərində XX əsrin sonlarında Azərbaycanda milli hərəkat, habelə Rusiyanın Azərbaycan siyasəti haqqında danışır[21]. Müəllif qeyd edir ki, Rusiya Azərbaycana münasibətdə zorakı, aqressiv siyasət yeritmişdir. Müəllif "Rusiya və Azərbaycan. Dəyişən sərhədlər kitabında" (ingiliscə) XX

---

[18] Тэтчер, М. Искусство управления государством. Стратегии для меняющегося мира/М.Тетчер-Москва,Альпина-2017-512с.

[19] Winrow, G.M. Turkey and the Caucasus. Domestic İnterests and Security Concerns / G.M. Winrow. – London: Royal İnstitute of İnternational Affairs, –2000. –67 p.

[20] Корнелл, С. Конфликт в Нагорном Карабахе: динамика и перспективы решения / Азербайджан и Россия: обществ и государства / Отв.ред.и сост. Д.Е. Фурман. – Москва: Летний сад, – 2001. – 496 с

[21] Svyataçovski, T. Rusiya və Azərbaycan sərhədyanı bölgə keçid dövründə / (ingiliscədən tərcümə) –Bakı: Xəzər Universiteti nəşriyyatı, – 2000. – 327 s.

əsrin sonunda Azərbaycanda baş verən hadisələri Rusiya-iran və Türkiyə geosiyasi üçbucağında şərh etsə də, regionda Rusiyanın roluna qabardaraq Türkiyə və İran istiqamətlərinə qismən toxunmuşdur.

İran müəlliflərindən A. Ramazanzadə Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində İranın vasitəçilik missiyasını xarakterizə etməyə cəhd göstərmişdir. O, öz tədqiqatında postsovet dövründə İranın Qafqaz siyasətini tarixi nöqteyi-nəzərdən təhlil edir. A. Maleki, Ş. Çubin, Z. Sepehr, S. Paul və M. Ağazadə müxtəlif səpkili əsər və məqalələrində SSRİ-nin süqutundan sonra İranın Qafqaz və Mərkəzi Asiya regionunda yeritdiyi siyasətin siyasi-iqtisadi aspektlərini təhlil etmiş və müvafiq elmi nəticələrə gəlmişlər[22].

Təqdim edilən dissertasiyada SSRİ-nin dağılmasından sonra Rusiya, İran və Türkiyənin Cənubi Qafqaz regionunda, o cümlədən Azərbaycandakı hərbi, siyasi, iqtisadi, strateji maraqları bir-biri ilə əlaqəli şəkildə və ümumi yanaşma prizmasından araşdırılır. Dissertasiyanın elmi yeniliyindən biri də ondan ibarətdir ki, regional dövlətlərin bölgə uğrunda mübarizəsi Azərbaycanda gedən proseslərlə paralel şəkildə və sıx təmasda tədqiq və analiz edilmişdir.

**Dissertasiyanın mənbəşünaslığı.** Dissertasiya müxtəlif dillərdə olan mənbələrin, sənədlərin, arxiv materiallarının və elmi ədəbiyyatın tənqidi analizi və müqayisəsi əsasında yazılmışdır. Rusiya, İran və Türkiyənin Azərbaycan siyasətinə dair tədqiqat əsərləri, monoqrafiyalar, elmi məqalələr ciddi araşdırılmış və istifadə

---

[22] Рамезанзаде, А. Роль Ирана как посредника в Нагорно-Карабахском кризисе // Спорные границы на Кавказе под. ред. Бруно Коппитерса. –Москва: Весь мир, –1996. – с. 182-198., Ramezanzadeh, A. Ethnic conflict: internal and international dimensions /A. Ramezanzadeh. – Leuven: Centrum Voor Vredesonderzoek,–1993. – p.33., Малеки, А. Иран и Туран: к вопросу об отношениях Ирана с государствами Центральной Азии и Закавказья //–Лулеа: Центральная Азия и Кавказа, –2001. №5 (17). – с.108-116., Chubin, Sh. The Foreign Relations of Iran: a developing state in a zone of great-power conflict / Sh.Chubin, S.Zabih, P.Seabury. – Berkeley: University of California Press, – 1974. – p.362
Ага-заде М.М. Азербайджано-иранские отношения: основные направления и особенности в 1991—2019 гг. (историографический обзор) // - Moskva: Вестник РУДН. Серия: Международные отношения 2021 Vol. 21 No. 4, - с. 803—821

olunmuşdur. Azərbaycan və xarici ölkə tədqiqatçılarının, analitiklərinin tezis, məqalə və məruzələrinə, elmi konfransların, mətbuat brifinqlərinin, televiziya və radio verilişlərinin materiallarına müraciət edilmişdir. Ümumi liderimiz Heydər Əliyevin "Müstəqilliyimiz əbədidir" çoxcildli əsərində Rusiya, İran və Türkiyənin Azərbaycanla hərtərəfli münasibətlərinə dair rəsmi sənədlər Dövlət rəhbərinin 90-cı illərində bu ölkələrə səfərləri, keçirdiyi görüşlər, məruzələr, nitqlər, rəsmi məktublar və bir çox digər sənədlər toplanmışdır. İ.Əliyevin "Azərbaycan nefti dünya siyasətində" adlı çoxcildli əsərində ABŞ, Rusiya, İran və Türkiyənin regionda enerji siyasəti, neft məsələsindəki strateji maraqlarının formalaşmasını əks etdirən sənədlər, dövlət rəsmilərinin fikirləri və s. toplanmışdır[23]. Xəzər dənizinin statusu problemləri İlham Əliyevin əsərlərində öz əksini tapmışdır.Belə ki, göstərilən monoqrafiyalarda nəinki neft hasilatı, həm də enerji daşıyıcılarının nəqli məsələlərinə, eləcə də regionun geosiyasi mənzərəsinə də ətraflı toxunmuşdur.

Q.Allahverdiyev və V.Sultanzadənin tərtib etdikləri "Heydər Əliyev və Şərq" çoxcildli əsərinin II-III cildləri Azərbaycan-İran və Azərbaycan-Türkiyə əlaqələrini əks etdirən mühüm mənbədir[24]. Müəlliflər Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasının Şərq ölkələrini, o cümlədən İran və Türkiyə ilə bağlı

---

[23] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Ə. Əliyev. – Bakı: Azərnəşr, – c. 1. –1997. – 612 s., Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Ə. Əliyev. – Bakı: Azərnəşr, – c. 2. –1997. – 604 s., Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Ə. Əliyev. – Bakı: Azərnəşr, – c. 3. –1997. – 479 s.,Əliyev, H.Ə.Müstəqillik yolu /H.Ə.Əliyev. – Bakı: Azərnəşr, –1997. –135 s. Əliyev, İ.H. Azərbaycan nefti dünya siyasətində:[5 cilddə] / İ.H.Əliyev. – c.1, – Bakı: Azərnəşr, –1997. – 478 s.,Əliyev, İ.H. Azərbaycan nefti dünya siyasətində:[5 cilddə] / İ.H.Əliyev. – c.2, – Bakı: Azərnəşr, – 1997. – 327 s., Əliyev, İ.H. Azərbaycan nefti dünya siyasətində:[5 cilddə] / İ.H. Əliyev. – Bakı: Azərbaycan, – c. 3. –1997. – 237 s.,Əliyev, İ.H. Azərbaycan nefti dünya siyasətində siyasətində:[5 cilddə]/ İ.H. Əliyev. – Bakı: Azərbaycan, – c.4. –1997. – 262 s., Əliyev, İ.H. Azərbaycan nefti dünya siyasətində siyasətində:[5 cilddə]/ İ.H. Əliyev. – Bakı: Azərbaycan, – c.5. –1997. – 399 s.,

[24] Allahverdiyev, Q.Ə. Heydər Əliyev və Şərq. İran İslam Respublikası: [6 cilddə] / Q.Ə.Allahverdiyev, V.M. Sultanzadə. –Bakı: Ozan, – c.2. – 2002. –452 s.,Allahverdiyev, Q.Ə. Heydər Əliyev və Şərq.Türkiyə Respublikası: [6 cilddə] / Q.Ə. Allahverdiyev, V.M. Sultanzadə. –Bakı: Çaşoğlu, –c. 3. – 2005. – 760 s. ,

həyata keçirdiyi xarici siyasətin əsas aspektlərini araşdırmış, bu yolda əldə edilmiş nailiyyətləri ümumiləşdirməyə təşəbbüs göstərmişlər. Kitabda Heydər Əliyevin Şərq siyasətinin bütün incəliklərini və uğurlarını əyani şəkildə əks etdirən müvafiq ədəbiyyat, diplomatik sənədlər, dövrü mətbuat materialları geniş və sistemli şəkildə təhlil edilmişdir.

Məzmununun və ictimai-siyasi dəyərinin yüksək olmasını xüsusi qeyd etməklə yanaşı, bu əsərlərdə iddiaçının dissertasiyada tədqiq etdiyi problem, ayrıca deyil, ümumi konteksdə nəzərdən keçirilmişdir. Yekunda qeyd etmək lazımdır ki, göstərilən ədəbiyyatlar dissertasiyanın mənbə bazasının əsasını təşkil etməklə yanaşı həm də onun ideoloji istiqamətini də müəyyən etmişdir.

**Tədqiqatın obyekt və predmeti.** Tədqiqat işinin obyekti 90-ci illərin birinci yarısında Azərbaycan Respublikasının Rusiya-İran-Türkiyə ilə yaranan, formalaşan və müəyyən inkişaf mərhələsi keçən münasibətləridir. XX əsrin 90-cı illərin əvvəllərində yaranmış beynəlxalq vəziyyətdə Rusiya, İran və Türkiyənin Azərbaycan siyasəti, regiondakı strateji məqsədlərinin vəhdəti, baş verən iqtisadi, siyasi keyfiyyət dəyişmələri və beynəlxalq ziddiyyətlərin düyün nöqtəsinin müəyyənləşdiyi yeni mərhələdə Azərbaycan Respublikasının yeri, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizama salınması sahəsində Rusiya, İran və Türkiyənin mövqeyi, Azərbaycanda daxili siyasi qarşıdurmanın daha da kəskinləşməsinin xarici amilləri tədqiqatın obyektini təşkil edir. 1991-1995-cü illərdə Azərbaycan Respublikasında baş verən siyasi proseslərin siyasi münasibətlərə təsiri, Azərbaycanda ictimai siyasi sabitliyin bərqərar olması və Rusiya, İran, Türkiyə ilə bərabər səviyyəli tərəfdaşlıq yaratmaq istiqamətində görülən tədbirlər, bu sahədə yeni dövrün başlaması, Azərbaycan Respublikasının neft strategiyasının formalaşmasına beynəlxalq və regional güc mərkəzlərinin, həmçinin Rusiya, Türkiyə, İran amilinin təsiri, Xəzərin Azərbaycan sektorunda neft-qaz yataqlarının işlənməsində Rusiya, İran və Türkiyə şirkətlərinin iştirakı və Heydər Əliyevin həyata keçirdiyi neft strategiyasının regional güclərin Azərbaycan siyasətində yaratdığı köklü dəyişikliklər və bir çox digər məsələlər tədqiqat işinin predmetini təşkil edir.

**Tədqiqat işinin məqsəd və vəzifələri.** Təqdim edilən dissertasiyada əsas məqsəd XX əsrin 90-cı illərində Rusiya, İran və Türkiyənin Qafqazda, xüsusilə Azərbaycanda formalaşmış strateji maraqları, əhatə dairəsi və xususiyyətlərinə dair elmi-siyasi, nəzəri konsepsiyaları kompleks şəkildə, sistemli tədqiq və müqayisəli təhlil əsasında araşdırmaqdan ibarətdir. Bu məqsədə çatmaq üçün aşağıdakı mühüm vəzifələr müəyyən edilmişdir:

- Sovet İttifaqının dağılmasından sonra Rusiya, İran və Türkiyənin regiondakı maraqlarının meydana gəlmə səbəblərinin elmi – nəzəri əsaslarının müəyyən edilməsi;
- Rusiya, İran və Türkiyənin bölgədəki strateji maraqlarının siyasi, iqtisadi, humanitar, sosial və hərbi təhlükəsizlik aspektlərinin müəyyən edilməsi və bunlar arasında mövcud olan əlaqələrin elmi – nəzəri əsaslarının öyrənilməsi;
- Türkiyənin Qafqaz siyasəti ilə türk dünyası siyasəti arasında mövcud əlaqələrinin geosiyasi amillərinin tədqiqi;
- Bölgədə baş verən hadisələr fonunda və Qafqazın ümumi geosiyasi mühitində Cənubi Qafqaz respublikalarının rolunun müəyyənləşdirilməsi;
- Azərbaycanın bölgədə gedən siyasi proseslərdə geosiyasi vəziyyətinin aydınlaşdırılması və Azərbaycan Respublikasının ümummilli lideri Heydər Əliyevin Azərbaycanın geosiyasi mövqeyinin müəyyən edilməsi istiqamətindəki fəaliyyətinin tədqiq edilməsi;
- Xəzər regionunun enerji diplomatiyasında Rusiya, İran və Türkiyənin diplomatik – siyasi fəaliyyətinin araşdırılması;
- Bölgədəki münaqişələrin həllində Rusiya, İran və Türkiyə diplomatiyasının mahiyyətinin açılması;

**Tədqiqat işinin metodları**. Tədqiqat prosesində müəllif müxtəlif tədqiqat metodlarından və üsullarından istifadə etmişdir. Bunlar tarix elminin əsas prinsipləri olan tarixilik, obyektivlik, hərtərəfli təhlil, mötəbərlilik və məlumatların səhihliyidir. Bu prinsiplər tarixi hadisələri real inkişaf və qarşılıqlı əlaqə prosesində tədqiq etməyə, hərtərəfli təhlillər və tarixi faktların qiymətləndirilməsini aparmağa imkan verir. Tarixi tədqiqatların ənənəvi prinsipi olan tarixilik ictimai hadisələrin inkişaf prosesində

konkret öyrəniliməsini, hər bir elementin digəri ilə qarşılıqlı əlaqələrinin dərin tədqiq olunmasını tələb edir. Tarixilik metodunun köməyi ilə Azərbaycanın xarici və daxili siyasətinin struktur və funksional keyfiyyətləri tədqiq edilmişdir. Obyektivlik prinsipi başlıca dəyərləri anlamağa, tarixi prosesin pozitiv və neqativ hadisələrini nəzərdən keçirməyə və təhlil etməyə imkan yaradır. Tarixi - müqayisəli metod vasitəsilə ölkədə baş verən konkret tarixi – hüquqi hadisələr analiz edilmişdir. Bu hadisələrin öyrənilməsi zamanı müəllif analogiya və ekstrapolyasiya kimi üsullardan, rəqəmsal göstəricilərlə iş zamanı isə statistik metoddan istifadə etmişdir. Komparativ metodun köməyi ilə muxtəlif mənbə qruplarının mötəbərlilik və səhihlik dərəcələri müəyyən olunmuşdur. Problem-xronoloji və ümumiləşdirmə metodlarının tətbiq edilməsi Azərbaycanın Rusiya, Türkiyə, İran və tədqiq edilən regiona bu və ya digər dərəcədə təsiri olan ölkələrlə siyasi, iqtisadi, mədəni əlaqələrinin, hərbi əməkdaşlığının həyata keçməsinin doğurduğu nəticələri qiymətləndirməyə və ümumiləşdirməyə imkan verir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Tədqiq olunan işdə əsas müdafiəyə çıxarılan əsas müddəalar aşağıdakılardır:

- Dövlət müstəqilliyi qazanan Azərbaycan Respublikasının xarici siyasət konsepsiyasında regionda ənənəvi maraqları olan Rusiya, İran və Türkiyənin geopolitik əhəmiyyətini əks etdirən diplomatiyanın formalaşdırılmasının labüdlüyü;
- Bölgədə Rusiyanın ənənəvi maraqları ilə uzlaşan, eyni zamanda Azərbaycanın müstəqilliyinə və suverenliyinə xələl gətirməyən xarici siyasət konsepsiyasında regiona yenicə daxil olan Türkiyə və İranın da geopolotik maraqlarını nəzərə alan tarazlaşdırılmış xarici siyasətin həyata keçirilməsinin labüdlüyü;
- Azərbaycanın qlobal problemlərinin milli maraqlara uyğun təmin edilməsi istiqamətində ölkənin enerji ehtiyatlarının aşkar edilib, istismara verilməsi və dünya bazarlarına nəqli istiqamətində dünyanın aparıcı ölkələrinin maraqlarına xidmət edən transmilli korporasiyalarla işbirliyi qurmaq və onun fəaliyyətini milli maraqlarla yanaşı ənənəvi geosiyasi üçbucağın (Rusiya, İran və Türkiyə) regional maraqlarına uzlaşdırmaq istiqamətində uğurlu xarici siyasət yeritməyin labüdlüyü.

**Tədqiqatın elmi yeniliyi.** SSRİ-nin dağılmasından sonra Rusiya, İran və Türkiyənin Cənubi Qafqaz regionunda, o cümlədən Azərbaycanda hərbi, siyasi, iqtisadi, strateji maraqları bir-biri ilə əlaqəli şəkildə və ümumi yanaşma prizmasından araşdırılır. İri dövlətlərin bölgə uğrunda mübarizəsi Azərbaycanda baş verən ictimai - siyasi proseslərlə paralel şəkildə və sıx təmasda tədqiq və analiz edilmişdir.

Cənubi Qafqazın aparıcı dövləti olan Azərbaycanın bölgədə baş verən siyasi proseslərdə mühüm iştirakçı kimi geosiyasi və geostrateji vəziyyəti konkret və müfəssəl şəkildə müəyyən edilmiş, əsas diqqət Azərbaycan Respublikasının Ümummilli Lideri Heydər Əliyevin Azərbaycanın geosiyasi mövqeyinin müəyyən edilməsi istiqamətində tarixi fəaliyyətinin tədqiq edilməsinə yönəldilmişdir.

- Rusiya, İran və Türkiyənin Xəzər regionunun təbii ehtiyatlarının işlənməsi və istismarında Neft Konsorsiumunun yaranmasının siyasi aspektləri və Dağlıq Qarabağ probleminin həll edilməsinə təsir imkanları təhlil edilmiş, bu siyasətin Azərbaycan diplomatiyasına iri dövlətlərlə bərabərhüquqlu münasibətlər yaratmaqda, onları müxtəlif səviyyələrdə milli mənafeyimizə uyğun qərarlar qəbul etməyə sövq etmək üçün hansı manevr imkanları yaratdığı elmi cəhətdən əsaslandırılmışdır
- 1991-1995-ci illərdə böyük və regional dövlətlərin Azərbaycanda formalaşmış ma¬raqlarının ayrı-ayrı istiqamətləri toplanmış materialların strukturlaşdırılması, qruplaşdırılması nəticəsində müqayisəli izah və təhlil metodu ilə öyrənilib tətbiq edilmişdir;
- arxiv sənədlərinin, dövrü mətbuatın araşdırılması nəticəsində ilk dəfə yeni faktlar və materiallar tədqiqata cəlb olunmuşdur;
- əldə olunan materialların öyrənilməsi və qruplaşdırılaraq tədqiqi əsasında Rusiya, İran və Türkiyənin region ölkələri ilə çoxşaxəli əlaqələrinin praktik tərəflərinin izahı verilmiş, nəzəri tərəflərinin elmi-metodoloji təhlili aparılmış, bu əlaqələrin gələcəkdə xüsusilə Rusiya və İran kontekstində strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsinin istər Azərbaycan, istərsə də digər maraqlı tərəflər üçün əhəmiyyəti göstərilmişdir;
- Azərbaycanın xarici siyasətinin həyata keçirilməsində Rusiya,

İran və Türkiyənin geosiyasi əhəmiyyəti, onların regiondakı imkanlarından istifadə edilməsinin elmi - nəzəri və konseptual əsasları öyrənilmişdir;

- Regionda maraqları olan kənar dövlətlərin xarici siyasət prinsip və istiqa-mətlərinə uyğun olaraq toqquşan və paralellik təşkil edən strateji maraqlar müəyyənləşdirilmişdir;

- SSRİ-nin dağılmasından sonra MDB ölkələrinin, o cümlədən Azərbaycanın yeni beynəlxalq münasibətlər sistemində yeri və rolu müəyyən edilmiş, postsovet məkanında inteqrasiyanın inkişafında olan başlıca problemlər və zidiyyətlər nəzərdən keçirilmişdir.

Nəhayət, Azərbaycanın Respublikasının Rusiya-İran-Türkiyə müstəvisində tarazlaşdırılmış siyasətinə dair dissertasiya boyu irəli sürülən bir sıra fikir və tövsiyələr, ümumiləşdirmələr və əldə edilmiş elmi nəticələr də tədqiqat işinin elmi yeniliklərindən hesab edilə bilər.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**. 90-cı illərdə dünyada və Azərbaycanda gedən sosial – siyasi proseslərin elmi analizin aparılması, Azərbaycanın xarici siyasətin araşdırılması elmi və əməli əhəmiyyət kəsb edir. Respublikamızın müstəqillik qazandığı, ideoloji səddlərin dağıldığı hazırkı şəraitdə tariximizin hərtərəfli öyrənilməsi üçün geniş imkanlar yaranmışdır. Bu imkanlardan istifadə edib yaxın keçmişimizin yenidən obyektiv təhlili, düzgün elmi nəticələr çıxarılması qarşımızda duran başlıca vəzifədir. Xalqın tarixini olduğu kimi, bütün reallıqları ilə təsvir etmək müstəqillik qazanmış xalqın qanuni hüququdur və bu amala sadiqlik tarixçilərimizin həm elmi borcu, həm də vətəndaşlıq borcudur. Məhz bu vəzifələr təqdim olunan dissertasiyanın praktik əhəmiyyətinə bariz nümunədir.

Son illər böyük beynəlxalq nüfuz qazanmış Azərbaycanın xarici siyasət xəttinin öyrənilməsinə və tədqiq edilməsinə maraq xeyli artmışdır. Ali məktəblərin humanitar fakültələrində ölkəmizin beynəlxalq münasibətləri müstəqil fənn və xüsusi kurs kimi tədris proqramlarına daxil edilmişdir. Azərbaycanın beynəlxalq münasibətlər tarixini dolğun əks etdirən mükəmməl tədqiqatların, dərslik və dərs vəsaitlərinin az olduğunu nəzərə alsaq, təqdim olunan tədqiqat işi müəllifin fikrincə bu sahədə mövcud olan boşluğu və informasiya qıtlığını qismən doldurmağa yardım edə bilər. Dissertasiyanın praktiki

əhəmiyyətinin daha bir göstəricisi odur ki, bu tədqiqat işindən ali məktəblərin humanitar fakültələrinin müəllim və tələbələri, o cümlədən Azərbaycanın müasir dövr siyasi tarixi ilə maraqlanan geniş oxucu kütləsi istifadə də edə bilər.

**Aprobasiyası və tərbiqi.** Dissertasiya işinin bütün fəsilləri və bölmələri üzrə elmi-nəzəri müddəalar müəllif tərəfindən dərc edilmiş metodik vəsait, monoqrafiya, məqalələr ADPU-da, ölkənin digər elm və tədris ocaqlarında (Gəncə, Naxçıvan), həmçinin Türkiyədə (İstanbul/Qars), Ukraynada (Odessa), Rusiyada (Moskva, Novosibirsk), Gürcüstanda (Tbilisi), Qazaxıstanda (Nur-Sultan/Astana/) nəşr olunan jurnallarda, təşkil olunmuş elmi konfranslardakı məruzələrdə və tezislərdə öz əksini tapmışdır.

**Dissertasiyanın yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Ümumi tarix və tarixin tədrisi texnologiyası" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın strukturu.** Dissertasiya giriş, dörd fəsil, 12 paraqraf, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın ümumi həcmi 576873 işarədən ibarətdir. Giriş- 45070 işarə, I Fəsil – 138310 işarə, II Fəsil - 161357 işarə, III Fəsil - 72156 işarə, IV Fəsil- 80579 işarə, Nəticə- 24276 işarədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın birinci fəsli "**90-cı illərin əvvəllərində yaranmış beynəlxalq vəziyyət və Rusiya, İran, Türkiyənin Azərbaycan siyasət**" adlanır və 3 yarımfəsildən ibarətdir.

Birinci fəslin **"Azərbaycan Respublikasının Rusiya, İran və Türkiyə ilə beynəlxalq münasibətlər sisteminin yeni mərhələsinə daxil olmasının iqtisadi-siyasi şərtləri"** adlanan birinci yarımfəslində Azərbaycanın dövlət müstəqilliyi yaranandan sonra onun ətrafında formalaşmış ənənəvi və tarixi geosiyasi üçbucağa daxil olan Rusiya, İran və Türkiyənin regiondakı iqtisadi və strateji maraqlarını nəzərə alan xarici siyasətin formalaşmasından söhbət gedir.

70-ci illərin sonu, 80-ci illərin əvvəllərində SSRİ-də sonralar "durğunluq dövrü" adlandırılan dövr yaşandı. 80-ci illərin ikinci yarısında SSRİ Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi

olan M.Qorbaçov ciddi islahatlar aparılmasının zəruri olması qərarına gəldi.

M.Qorbaçovun hakimiyyəti illərində SSRİ-nin dövlət borcu astronomik məbləğə - 13 milyarddan 113 milyard dollara çatmışdı. 1991-ci ildə Moskva da daxil olmaqla, bütün ölkədə əsas qida məhsullarına, şərab-araq, tütün məmulatlarına kartoçkalar tətbiq olunmağa başladı[25]. İxracın əsasını təşkil edən neft qiymətlərinin aşağı düşməsi ölkəyə valyuta vəsaitlərinin daxil olmasını xeyli azaltdı.

Yenidənqurma siyasətinin fəal müdafiəçiləri olan dünya dövlətləri sovet respublikalarında bazar təsərrüfatının tətbiqinə xüsusi əhəmiyyət verirdilər.

80-ci illərin ikinci yarısında başlanan yenidənqurma cəmiyyətin siyasi əsasını saxlamaqla, iqtisadi dayaqlarını kosmetik təmir etmək məqsədi güdürdü. Lakin Kreml dövləti iflasdan qorumaq üçün, müxtəlif regionlarında etnik münaqişələri qızışdıraraq onun iştirakçılarını Moskvadan imdad diləməyə məcbur etməklə ömrünü uzatmaq istəyirdi. M.Qorbaçovun xəbəri olmadan avqustun 19-a keçən gecə fəaliyyəti iflasa uğrayan Fövqəladə Vəziyyət üzrə Dövlət Komitəsi yaradıldı. Bu hadisələr ölkədə qüvvələr nisbətini köklü şəkildə dəyişdi. B.Yeltsin dövlət çevrilişinin qarşısını alan xalq qəhrəmanına çevrildi. M. Qorbaçov demək olar ki, bütün təsir qüvvəsini itirdi.

İttifaqa son zərbə 1991-ci ilin dekabrında vuruldu. Rusiyanın, Ukraynanın və Belorusiyanın rəhbərləri B.Yeltsin, L. Kravçuk, S.Şuşkeviç M.Qorbaçovu xəbərdar etmədən Minsk şəhəri yaxınlığında Belovejskaya Puşa adlanan yerdə toplandılar. Burada onlar 1922-ci il İttifaq müqaviləsinin öz qüvvəsini itirməsi və SSRİ-nin ləğv edilməsi haqqında saziş imzaladılar.

SSRİ-nin dağılmasından sonra Cənubi Qafqaz və müstəqillik qazanmış Azərbaycan yeni yaranmış geosiyasi reallıqla üzləşdi.ölkə Rusiya,İran və Türkiyə kimi dövlətlərin yeni strateji maraq dairəsinə çevrildi. Rusiya Azərbaycanda öz təsir dairəsini qoruyub saxlamaqda,İran dini təməlçiliyi yaymaqla burada cəmiyyəti

[25] Филиппов, А.В. Новейшая история России 1945-2006 / А.В. Филиппов. Просвещение, – 2007. –494 с.

radikallaşdirıb öz təsir dairəsini yaratmaqda, Türkiyə isə Azərbaycanın müstəqilliyini dəstəkləməklə yanaşı onun enerji mənbələrinə çıxmaq,Azərbaycan vasitəsilə Mərkəzi Asiyanın türkdilli dövlətləri ilə əlaqələr qurub burada öz maraq dairəsini yaratmaqda israrlı idi.

**“90-cı illərin əvvəllərində Azərbaycan Respublikasında yaranmış ictimai-siyasi vəziyyətlə Rusiya, İran və Türkiyənin regionundan strateji məqsədlərinin vəhdəti”** adlı ikinci yarımfəsildə 90-cı illərin əvvələrində ölkədə baş verən ziddiyyətli hadisələri region güclərinin strateji maraqlarına nə dərəcədə cavab verməsindən bəhs edilir. Bölgədə maraqları olan Rusiya, Türkiyə, İran və Avropa ölkələrinin rolunu xüsusi qeyd etmək lazımdır[26]. SSRİ adlı nəhəng imperiya dağıldıqdan sonra burada yaranmış üç müstəqil dövlət - Azərbaycan, Gürcüstan və Ermənistan dərhal dünya birliyinin diqqətini özünə cəlb etdi. XX əsrin sonlarında SSRİ-nin süqutu ilə regionun nəzarətdən çıxması onu yenidən ABŞ, Rusiya, İran, Türkiyə və Orta Asiyanın böyük dövlətlərinin maraqlarının toqquşduğu məkana çevrildi[27].

SSRİ-nin dağılmasından sonra özünü hüquq varis hesab edən Rusiya Federasiyası bəyan etdi ki, MDB məkanı onun üçün həyati əhəmiyyət kəsb edir. Rusiya Federasiyasının keçmiş xarici işlər naziri A. Kozırev dəfələrlə qeyd etmişdi ki, MDB Rusiya üçün həyati əhəmiyyəti olan problemləri əhatə edən birinci səviyyəli təsir dairəsidir. Bizim MDB-də maraqlarımız bunlardır: vahid ordu, sıx iqtisadi münasibətlər, unikal mədəni məkan, ümumi sərhədlər və ümumi rus dili. Siyasətçinin dediyinə görə, Rusiya bu maraqlarını bütün mümkün, hətta ən sərt vasitələrlə qoruyacaq[28].

İran Azərbaycan dövlətinin mövcudluğunu milli maraqlarına təhlükə kimi qiymətləndirirdi. Ona görə də sözdə islam birliyindən danışan İran, işdə Ermənistana hər cür maddi və mənəvi yardım

[26] Nəsibov, E.M. ABŞ və Türkiyənin Qafqaz geosiyasi regionunda strateji maraqları və Azərbaycan Respublikası / E.M. Nəsibov. –Bakı: Çıraq, – 2006. – 314 s.
[27] Ruintən, K.F. Ermənistanın Azərbaycana təcavüzü və dünya siyasəti / K.F. Ruintən. – Bakı:Adiloğlu, –2008. – 260 s.
[28] Rusiyanın yeni hərbi doktrinası və sülhyaratma. (11 noyabr 1992-cı il) // Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin arxivi, Fond № 28, siyahı № 19, iş № 32, vərəq-95.

göstərirdi. Eyni zamanda Tehranın Qafqazda maraqları Rusiyanın və Türkiyənin maraqları ilə toqquşurdu.

90-cı illərin əvvəllərində dünyanın geosiyasi iqlimi əsasən ABŞ ilə Rusiya arasında münasibətlərlə müəyyən olunurdu. "Soyuq sülh" mövcud olduqda konfliktli regionlarda gərginlik və yeni "qaynar nöqtələr" yaranması ehtimalı artırdı[29].

ABŞ 1991-ci il dekabrın 25-də Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanıdı və 1992-ci ilin martında onunla diplomatik əlaqələr qurdu[30].ABŞ-ın Azərbaycanda siyasi maraqlarının güclənməsində, ilk növbədə, iqtisadi amillər əsas rol oynayırdı. Məşhur politoloq Z.Bjezinskinin fikrincə, Azərbaycanla ABŞ arasında iqtisadi münasibətlər mümkün olan hüdudlara qədər genişlənməlidir, çünki bu, ABŞ-ın Azərbaycandakı siyasi rolunu da gücləndirəcək. İqtisadi münasibətlər ABŞ-da Azərbaycanın dostlarının sayını artıracaq və ABŞ-ın daxilindəki bəzi qüvvələrin yaratdığı halların aradan qaldırılmasına kömək edəcəkdir[31].

Türkiyənin Azərbaycanın müstəqilliyinin qarantı olması da Rusiya və İranı qıcıqlandıran cəhətlərdən biri idi. "Əsrin müqaviləsi" imzalandıqdan dərhal sonra məlum oldu ki, İranın mövqeyi bir çox parametrlər üzrə Rusiyanın mövqeyi ilə üst-üstə düşür. Rusiyanın İrandakı səfirinin məsləhətçisi cənab Mustafabəyli qeyd edirdi ki, İran-Rusiya baxışları çox cəhətdən uyğun gəlir[32].

MDB ərazisinin birmənalı olaraq özünun geosiyasi maraq dairəsinə daxil olduğunu iddia edən Rusiya Azərbaycana strateji mənafe zonası kimi baxdığını heç gizlətmirdi. Rusiya parlamentinin xarici işlər üzrə Komitəsinin sədri Y. Ambarsumov sübut etməyə çalışırdı ki, keçmiş sovet respublikaları Rusiyanın birmənalı olaraq

---

[29] Bal, İ. XXI yüzyılda Türk Dış Politikası. (Geliştirilmiş 2. Baskı) / İ.Bal. – Ankara: Nobel Yayım Dağıtım, –2004. – 994 s.

[30] Rusiyanın yeni hərbi doktrinası və sülhyaratma. (11 noyabr 1992-cı il) // Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin arxivi, Fond № 28, siyahı № 19, iş № 32, vərəq-95.

[31] Məsələn, "Porter əlavəsi" ABŞ-ın Azərbaycanla Dağlıq Qarabağa ayrı-ayrılıqda yardım edilməsini nəzərdə tuturdu

[32] Əliyev, Q. Azərbaycanın xarici siyasətində Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin yeri və əhəmiyyəti //– Bakı: AR Prezidenti yanında DİA-nın nəşri, Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə, – 2003.– №3. s.56-61.

təsir dairəsinə daxildirlər. Rusiya Federasiyası xarici işlər naziri A.V. Kozırev isə bildirdi ki, Rusiya yüz illərlə onun maraq dairəsinə daxil olan regionlarda öz hərbi mövcudluğunu qoruyub saxlamalıdır[33].

90-cı illərinin birinci yarısında Cənubi Qafqazda Türkiyənin maraqları Rusiya və İranın maraqları ilə demək olar ki, bütün sahələrdə toqquşurdu. Türkiyə Qara dəniz regionunu sabitləşdirir, oradan Aralıq dənizinə çıxışa nəzarət edir, Rusiyanı Qafqazda tarazlaşdırır və islam fundamentalizminin qarşısını almaqla NATO-nun cənub qanadına xidmət edirdi. Məhz Türkiyənin və onun arxasında duran ABŞ-ın dəstəyi ilə ilk kövrək, müstəqil addımlarını atan Azərbaycan şimaldan Rusiyanın, cənubdan isə İranın təzyiqlərinə duruş gətirə bilərdi. Bunu Rusiya və İranda da yaxşı başa düşürdülər. Bu səbəbdən Türkiyəyə qarşı faktiki olaraq Moskva – İrəvan - Tehran oxu yaranmaqda idi[34].

Ermənistan müstəqillik dövrünə ərazisindəki keçmiş Sovet Ordusunun hissələrinin bazasında yaratdığı güclü ordu ilə daxil oldu. Ermənilər SSRİ-nin dağılması ilə əlaqədar situasiyadan məharətlə istifadə edərək öz silahlı qüvvələrini yaradıb möhkəmləndirdilər.

Birinci fəslin “ **Beynəlxalq aləmdə baş verən iqtisadi.siyasi keyfiyyət dəyişmələri və beynəlxalq ziddiyyətlərin düyün nöqtəsinin müəyyənləşdiyi yeni tarixi mərhələdə Azərbaycan Respublikasının yeri”** adlı üçüncü yarımfəsildə bölgədə sürətlə cərəyan edən hadisələrin fonunda Azərbaycanın ətrafindakı ənənəvi geosiyasi üçbucaqa daxil olan dövlətlərlə optimal münasibətlər qurmaq cəhdlərindən bəhs edilir.

1991-ci il Rusiyanın öz super dövlət əhəmiyyətini dərk etməsində dönüş ili oldu. Rusiyasının ilk xarici işlər naziri A. Kozırev SSRİ dağılandan sonra öz ölkəsinin beynəlxalq aləmdə yeni rolunu belə izah edirdi: “*Biz messianlıqdan imtina edərək proqmatik inkişaf kursu seçmişik. Biz çox tez anladıq ki, geosiyasət ideologiyanı əvəz edir*”[35]. Hətta 1990-cı il noyabrın 19-da Kiyevdə çıxış edən B.Yeltsin

---

[33] Rusiyanın yeni hərbi doktrinası və sülhyaratma. (11 noyabr 1992-cı il) // Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin arxivi, Fond № 28, siyahı № 19, iş № 32, vərəq-95.

[34] Дугин, А.Г. Основы геополитики. Геополитическое будущее России. Мыслить Пространством /А.Г. Дугин.–Москва:Арктогея- центр,–2000. – 928 с.

[35] Дугин, А.Г. Международные отношения (парадигмы, теории, социология):

demişdir: "*Rusiya hər hansısa yeni bir imperiyanın mərkəzi olmaq istəmir... Rusiya uzun müddət bu rolu oynadığı üçün onun məhvedici mahiyyətini hamıdan yaxşı bilir. Bu rol ona nə vermişdir? Yəni ruslar daha azad, varlı və xoşbəxt oldular?. Tarix bizi öyrədir ki, digər xalqları idarə edən xalq özü xoşbəxt ola bilməz*"[36].

Türkiyənin SSRİ-nin dağılmasndan istifadə edərək Azərbaycana hər hansı bir potensial yardım göstərməsinin qarşısını almaq məqsədilə, marşal Şapoşnikov Türkiyənin erməni-azərbaycan qarışarsa "üçüncü dünya müharibəsi"nin başlayacağı barədə xəbərdarlıq etdi[37].

Sovet imperiyasının dağılması ilə İran qonşu dövlətlərin ərazisində baş verən etnik konfliktlərin öz ərazisinə keçməsi təhlükəsi ilə üzləşmişdi. Geosiyasi baxımdan İranYaxın Şərqin bir hissəsi, daha dəqiq desək, onun şərq qapısıdır. Bəzilərinin "Yeni Yaxın Şərq"[38], digərlərinin isə "Şimal - Qərbi Asiya"[39] adlandırdıqları yeni region yarandı. 7 mln kv. km. ərazisi, 320 mln. əhalisi olan bu regiona Pakistan, Əfqanıstan, İran, Türkmənistan, Tacikistan, Özbəkistan, Qırğızıstan, Qazaxıstan, Azərbaycan, Ermənistan, Gürcüstan və Türkiyə daxildir. 1991-ci il sentyabrın 6-da İran İslam Respublikasının XİN-yi sovet müsəlman respublikalarına göndərdiyi məktubda onlarla hərtərəfli əlaqələr qurmağa hazır olduğunu bildirmişdir.[40]İranın təşəbbüsü və Türkiyə ilə Pakistanın razılığı ilə İqtisadi Əməkdaşlıq .

---

Учебное пособие для вузов /А.Г. Дугин. – Москва: Академический проект,– 2013. – 348 с.

[36] Бжезинский, З.Т. Великая шахматная доска. / З.Т. Бжезинский. – Москва: Международные отношении, – 1999. – 256 с.

[37] Türkiyənin Azərbaycandakı səfirliyi ilə yazışmaları (09.07.1992-17.09. 1998-ci illər) // Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin arxivi, Fond № 28, siyahı № 21, iş № 31. vərəq-105.

[38] Barkey Henri J. Turkeys Kurdish Dilemma: [Electronic resource] // – Survival. Vol. 35. Winter 93/94. №4 – p.51-701. URL: https: //www. tandfonline. com/doi/abs/10. 1080/00396339308442711

[39] Ramazani, R.K. Iran's Foreign Policy: Both North and South // The Middle East Journal, –Summer 1992. Vol. 46. №3, –p. 393-412

[40] Письмо отправленное МИД-ом Иранской Исламской Республики в советские мусульманские республики. Именем Аллаха. (6 сентября 1991 г.)// Государственный архив Азербайджанской Республики, Фонд № 411, опись № 47, един. хран. 373, лист – 1.

Təşkilatının 1992-ci ildə Tehranda keçirilən I sammitində Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan və Tacikistan rəsmi olaraq üzvlüyə qəbul edildilər. İran 1991-ci il dekabrın 25-də Azərbaycanın dövlət müstəqilliyini tanıdı, 1992-ci il martın 12-də isə diplomatik münasibətlər qurdu[41].

Türkiyə SSRİ-nin dağılmasından sonra Qafqaz ölkələrinin müstəqilliklərini bir-birinin ardınca tanıdı[42]. SSRİ dağıldıqdan sonra müstəqilliyə nail olmuş türkdilli respublikalarla sülh, təhlükəsizlik, sabitlik və Avrasiyada inkişaf etmək naminə tarixi, dili və mədəniyyəti bir kökdən olmasını nəzərə alaraq, Türkiyənin prezidenti T. Özalın təşəbbüsü ilə 1992-ci il 30-31 oktyabr tarixində, Ankarada Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan və Türkiyənin dövlət başçılarının iştirakı ilə türkdilli dövlətlərin ilk sammiti keçirildi[43]. Türkiyə mövcud problemlərə baxmayaraq, Ermənistanla normal münasibətlər qurulmasında maraqlı idi. 1992-ci ilin aprel ayında Türkiyənin Moskvadakı səfiri Volkan Vural Türkiyənin ilk rəsmi şəxsi kimi, avqust ayında isə Türkiyə XİN nümayəndə heyəti İrəvanda olmuşdu[44].

1990-cı ilin yanvarın 10-da Ankarada Azərbaycan SSR ilə Türkiyə Respublikası arasında "1990-1992-ci illərdə Azərbaycan SSR və Türkiyə Respublikası arasında mədəni və elmi mübadilə barədə" protokol imzalandı[45]. 1989-cu il oktyabrın 18-də Bakıya 57 nəfərlik türk heyəti gəlmişdir. Heyətə Türkiyə ticarət-sənaye palatasının Prezidenti A.Coşğun və Türkiyə Sovet işgüzar Şurasının nümayəndəsi Göyigid başçılıq etmişlər. 19 oktyabrda Gülüstan sarayında Türkiyənin işgüzar dairələri ilə respublikanın nazirlik, komitə və

---

[41] İslam Konfransı Təşkilatı ölkələrinə aid sənədlər. (1995-1996-cı illər) // Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin arxivi, Fond № 28, siyahı № 21, iş № 63, 1 vərəq – 196.

[42] Yanar, S. Türk-Rus ilişkilerinde gizli güc: Kafkasiya / S.Yanar.–İstanbul: İQ Kültür Sanat Yayıncılık, –2002. –256 s.

[43] Məmmədli, N.A. Mərkəzi Asiyanın Türk dövlətləri və Türkiyə / N.A. Məmmədli. – Bakı: Az.AtaM, – 2005. – 321 s.

[44] URL:https://eadaily.com/ru/news/2021/12/16/amerikanskiy-prioritet-normalizacii-erevan-vypolnil-vse-predusloviya-ankary-mnenie

[45] Səfərov, P.Ş. XX əsrin 90-cı illərinin əvvəlləri Azərbaycan Türkiyənin xarici siyasətində //–Bakı: Pedaqoji Universitetin Xəbərləri, 2018. c.66, №3, – s.159-166.

birlikləri arasında əlaqələr qurmaq, yüngül, yerli sənaye, aqrar sənaye kompleksi, elektrotexnika və turizm sahələrində əməkdaşlıq məsələləri müzakirə edilmişdir. Azərbaycan SSR Nazirlər Sovetinin sədri Həsən Həsənov başda olmaqla Azərbaycanın hökumət nüümayəndə heyətin 1990-cı il 14-19 sentyabr tarixində Türkiyədə rəsmi səfərdə olmuşlar. Türkiyə Cümhuriyyətinin prezidenti Turqut Özalın[46], Baş Nazir Yıdırım Akbulutun qəbulunda olmuşlar[47]. Danışıqlarda, görüşlərdə müşavirələrdə "Azərbaycan SSR ilə Türkiyə Respublikası arasında iqtisadi və ticarət əlaqələrini inkişaf etdirmək haqqında" 1990-cı il 10 yanvar tarixli protokollarla əlaqədar Türkiyə-Azərbaycan münasibətlərinin inkişaf etdirilməsi məsələləri nəzərdən keçirilmişdir[48].1990-cı il oktyabr ayının 23-də Azərbaycan SSR Nazirlər Soveti "Azərbaycan SSR ilə Türkiyə Respublikası arasında nəqliyyat, kommunikasiya ticarət və digər iqtisadi əlaqələrin inkişaf etdirmək" barədə qərar qəbul etmişdir[49].. 1991-ci il aprelin 22-26-sı tarixlərində Bakıda Türkiyə Cumhuriyyətinin ticarət sənaye yarmarkasının keçirilməsinə hazırlıq və onun uğurla keçirilməsi iki ölkə arasında əməkdaşlığın başlanmasının ilk addımaları idi[50]. 1991-ci ilin martında Türkiyə prezidenti Turqut Özalın Bakıya səfəri SSRİ tərkibində münasibətlərin inkişafı üçün müəyyən şərait yaratsa da, bu münasibətlər hələ məhdud idi. 1992-ci ilin aprelində Türkiyənin baş naziri S.Dəmirəlin Bakıya səfəri iki ölkə arasında çoxsahəli münasibətlərin yeni əsaslar üzərində inkişafı üçün zəmin hazırladı[51].

---

46 Azərbaycan-Türkiyə diplomatik əlaqələri mətbuat səhifələrində (1990-1992). / red: – Bakı: OLNPKT, – 2018. – 160 s.

47 Yenə orada, s.82

48 Yenə orada, s.83

49 Постановление Совета Министров Азербайджанской ССР. (23 октября 1990 г.) // Государственный Архив Азербайджанской Республики, Фонд № 411, опись №47, един. хран. 315, лист -4.

50 Письмо Председатель Президиума Торгово-промышленной палаты Азербайджанской ССР Г.Гусейнова Премьер министру Азербайджанской ССР Г. Гасанову (11 апреля 1991 г.) // Государственный архив Азербайджанской Республики, Фонд № 411, опись №47, един. хран. 367, лист -1.

51 Kərimova, B.T. Erməni məsələsinin yaranmasında İngiltərənin rolu məsələsi müasir türk tarixşünaslığında //–Bakı: Azərbaycan Milli EA. Tarix İnstitutu, Elmi əsərlər, – 2019. №78. – s.90-100

Dissertasiyanın ikinci fəsli "**Müstəqil dövlət quruculuğunun ilkin mərhələsində Azərbaycan-Rusiya, Azərbaycan-Türkiyə, Azərbaycan-İran münasibətləri (1991-ci il – 1993-cü ilin birinci yarısı)**" adlanır və üç yarımfəsildən ibarətdir.

**"Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizama salınması sahəsində Rusiya, İran və Türkiyənin mövqeyi"** adlanan birinci yarımfəsildə Ermənistan-Azərbaycan qarşıdurmasının baş verdiym tarixi zaman kəsiyində dünyada və bölgədə baş verən ictimai siyasi prosedur, Dağlıq Qarabağ münaqişəsinə region dövlətlərinin öz maraqları baxımından yanaşması amili öz əksini tapmışdır.

SSRİ-nin milli tərkibi haqqında bir sıra proqnozlar, türk xalqlarının, islam amilinin xüsusi çəkisinin artması Qərb dünyasını narahat edirdi. Lakin elə ki, SSRİ məkanındakı türk xalqlarının sosial-iqtisadi, intellektual və mədəni-mənəvi inkişafı nəzərə çarpacaq səviyyəyə qalxdı və onların nümayəndələri Siyasi Büroya üzv seçildilər və hətta SSRİ hökumətinə başçılıq etməyə başladılar, o zaman bu amilin ciddiliyinə şübhə yeri qalmadı[52]. Mərkəz mühüm geosiyasi əhəmiyyətə malik regionlarda milli münaqişələr ocağı yaradaraq orada öz mövcudluğunu və təsir dairəsini nəyin bahasına olursa-olsun saxlamağa can atırdı[53]. M. Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri A. Aqanbekyanın 1987-ci ilin noyabrında Parisdə keçirdiyi bir görüşdə "...Qarabağın Azərbaycandan daha çox Ermənistanla bağlı olduğunu hesab edirəm" deməsi Dağlıq Qarabağda "miatsum" hərəkatının başlanmasına təkan verdi.

SSRİ-nin süqutundan sonra müstəqil olan Ermənistan dövləti terroru dövlət siyasəti səviyyəsinə qaldırılaraq "Daşnaksütun", "ASALA" və digər erməni terrorçu təşkilatları ilə sıx əməkdaşlığa başlamışdır. Azərbaycanlılara və türklərə qarşı təşkil edilmiş belə cinayətkar terrorçu dəstələrdən "Urartu", "Dro", "Vaan Avanesyan 31" və.s. göstərmək olar. Ermənistan DİN məlumatına görə 1990-cı ildə Ermənistanda 10 mindən çox silahlıları birləşdirən bir neçə dəstə

---

[52] Azərbaycan Respublikası (1991-2001) / R.Ə. Mehdiyevin redaktəsi ilə. – Bakı: Azərnəşr, – 2001.– 360 s

[53] Səfərov, P.Ş. 90-cı illərinin I yarısında Azərbaycanın beynəlxalq vəziyyəti və xarici siyasəti / P.Ş. Səfərov. – Bakı: ADPU-nun nəşri, – 1999. 117 s.

mövcud idi[54].

80-ci illərin sonuna yaxın antiazərbaycan təbliğatının mərkəzi Yaxın Şərq, Fransa və ABŞ-dan Moskvaya keçdi. Azərbaycan əleyhinə müxtəlif aksiyalar və təxribatlar hazırlanır, Qarabağın və xalqımızın tarixini saxtalaşdıran məlumatlar yayılır, erməni mövqelərinin beynəlxalq səviyyədə müdafiəsini təşkil edən fəaliyyət əlaqələndirilirdi. Ermənilərin Moskvadakı ideoloqlarından biri Q.Staravoytova yazırdı: "*Kiçik xristian xalqı olan ermənilər yəhudilər kimi soyqırıma məruz qalsalar da, müsəlman qaragüruhuna qarşı mübarizə aparmışlar*"[55].

1988-1994-cü illərin konfliktləri isə SSRİ-nin zəifləməsi və süqutu fonunda meydana çıxmışdı. Milli elitalar öz xalqlarını suverenlik uğrunda mübarizəyə həvəsləndirə bildilər və Moskvanın nəzarətindən çıxmaq onların prioritet vəzifəsinə çevrildi. [56].

20-ci illərin əvvəllərində bağlanmış müqavilələri ədalətsiz elan edən erməni millətçiləri Azərbaycan torpaqlarını ələ keçirmək, Dağlıq Qarabağı Ermənistana ilhaq etmək məqsədilə müxtəlif planlar hazırlayırdılar[57]. Qarabağın erməni əhalisi Moskvaya minlərlə fərdi və kollektiv məktub göndərərək Ermənistanla birləşmək arzusunda olduqlarını bildirir, imza toplanılması kompaniyası keçirirdilər. Ermənilər və xaricdəki güclü erməni diasporasının hərtərəfli dəstəyi Qarabağın erməni separatçılarının "mübarizəsinə" ədalətli don geydirilməsində mühüm rol oynadı. "Qarabağ" komitəsinin liderlərindən biri olan L.Ter-Petrosyan hələ 1988-ci ildə "Tayms" qəzetinə müsahibəsində deyirdi: "*Biz məqsədimizə nail olacağımız*

---

[54] Mirbəşiroğlu, E. Müasir terrorizm və beynəlxalq təhlükəsizlik problemi / E.Mirbəşiroğlu. – Bakı: Elm və Təhsil, – 2017. – 80 s.

[55] Чернявский, С. И. Новый путь Азербайджана / С.И. Чернявский. –Москва: Молодая гвардия, –2002. –350 с.

[56] Зверев, А. Этнические конфликты на Кавказе в 1988-1994 годах., см: Спорные границы на Кавказе // Под ред. Бруно Коппитерса. – Москва: Весь мир, –1996. – с. 10-76

[57] 1921-ci ildə imzalanmış Moskva müqaviləsinə əsasən ermənilərin özlərinin hesab etdikləri Qars şəhəri sahibi olan Türkiyəyə verildi. Həmin ilin Qars müqaviləsinə əsasən Azərbaycanın tərkibində Naxçıvan MSSR yaradılmalı idi. 1923-cü ildə bağlanmış Lozanna müqaviləsinə görə Türkiyə- Ermənistan gündəmdən birdəfəlik çıxarıldı.

*təqdirdə də bu hərəkat xalqımızın iradəsinin ifadəsi kimi davam etdirilməlidir*"[58].

1977-ci ildə SSRİ-nin sonuncu konstitutsiyasını hazırlayan komissiyanın sədr müavini Sov.İKP MK-nın katibi B.Ponamaryov komissiyanın iclaslarından birində ermənilərdən DQMV-nın Ermənistana birləşdirmək barədə çoxsaylı məktublar gəldiyini bildirərək bu məsələni növbəti iclasa çıxarmaq istəmişdir. Bu zaman Heydər Əliyev L.Brejnevlə danışaraq məsələni gündəlikdən çıxarmağa nail olmuşdur[59].

Sosializm illərində Dağlıq Qarabağ regionu Azərbaycanın digər regionları ilə müqayisədə daha yüksək inkişaf səviyyəsinə malik idi. Statistik məlumatlara əsasən, 1970-1986-cı illərdə respublika üzrə sənaye məhsulunun artımı 3 dəfə, Dağlıq Qarabağda isə 3,3 dəfə olmuşdur[60].

Rus diplomatı və şairi A.S.Qriboyedovun vaxtı ilə yazdığı "*…ermənilər ilk dəfə buraxıldıqları torpağa həmişə sahib çıxırlar*"[61] kimi ermənilər nəyin bahasına olursa-olsun Azərbaycan torpaqlarını ələ keçirməyə çalışırdılar. Erməni millətçilərinin mərkəzi hakimiyyətdəki havadarlarının köməyi, SSRİ DTK-nın dəstəyi ilə təşkil etdikləri Sumqayıt hadisəsi bütün dünyada "əzabkeş ermənilər" haqqında süni hay-küy qoparmağa məqam yaratdı, ermənilərin əsas motivi – "Böyük Ermənistan" yaratmaq motivini kölgədə qoydu.

Sumqayıt hadisələrindən sonra Ermənistanda hökumətin və "Qarabağ hərəkatı" liderlərinin mütəşəkkil surətdə təşkil etdiyi qanlı antitürk hərəkatı genişləndi. 1988-ci ilin qışından başlayaraq Ermənistanda azərbaycanlılara qarşı etnik təmizlənmə başlandı. 40897 azərbaycanlı ailəsi, 185519 nəfər azərbaycanlı məcburi deportasiya

---

58 Мамедов, Э.С. Двадцать лет спустя / Э.С. Мамедов. – Баку: Мутарджим, – 2008. – 204 с.

59 Məmmədov, N.R. Azərbaycan Respublikasının Qarabağ bölgəsi 1970-1985-ci illərdə / N.R. Məmmədov.– Bakı: Avropa, – 2017. – 328 s.

60 Qasımlı, M.C. Azərbaycan Respublikasının xarici siyasəti 1991-2003: [2 cilddə] / M.C. Qasımlı. – Bakı: Mütərcim, – c.1. –2015. – 648 s.

61 Грибоедов, А.С. Сочинения: [в 4 томах]/ А.С. Грибоедов. – Москва: Правда, –т. 2. –1971. – 376 с

edildi, həmçinin mənzil və əmlaklarından məhrum edildilər[62].

1988-ci ilin martında İrəvana əlavə sovet qoşunları yeridildi. Ermənistanda gələcək prezident L. Ter-Petrosyanın başçılıq etdiyi "Qarabağ" komitəsi yaradıldı. İyulun 12-də DQMV Şurasının sessiyası Azərbaycanın tərkibindən çıxıb Ermənistanla birləşməsi haqqında qərar qəbul etdi[63]. Azərbaycan SSR Ali Soveti elə həmin gün bu aktı qanunsuz elan etdi. Noyabrın 17-dən Bakıda fasiləsiz mitinqlər başladı. O. Sultanov qeyd edir: *"... Respublika EA başlayan mitinq... daha sonra... 19 günlük meydan epopeyası ilə əvəz olundu"*[64].

Bakıda və İrəvanda milli hərəkatın bir sıra rəhbərlərini həbs etməklə Moskva vəziyyətə nəzarəti ələ almaq məqsədi güdürdü. 1989-cu ilin yanvarında Sov. İKP-nin Dağlıq Qarabağ Vilayət Komitəsinin qatı millətçi katibi G. Poqosyan vəzifəsindən azad edildi. 1989-cu il yanvarin 13-də SSRİ Ali Soveti "Azərbaycan SSR-in DQMV-də xüsusi idarəetmə formasının tətbiq edilməsi barədə" Fərman verdi[65]. İdarəetmə funksiyaları yeni orqana – Moskvadan göndərilmiş A.Volskinin başçılıq etdiyi Xüsusi İdarəetmə Komitəsinə (XİK) tapşırıldı.

Dağlıq Qarabağda azərbaycanlı əhaliyə qarşı zorakılığa etiraz olaraq Bakı və digər şəhər və rayonların əhalisi meydanlara axışır və etiraz mitinqləri keçirdi. M. Qorbaçov tərəfindən Bakıya göndərilən SSRİ Ali Soveti İttifaq Sovetinin sədri Y. Primakov müxtəlif görüşlər keçirir, vəziyyəti Moskvanın xeyrinə yönəltməyə cəhd edirdi. Yanvarın 19-dan 20-nə keçən gecə isə sovet qoşunları ağır texnikası şəhərə daxil qanlı qırğın törətdilər. Rəsmi məlumata görə Bakıda və respublikanın rayonlarında 131 nəfər, o cümlədən 117 azərbaycanlı, 6 rus, 3 yəhudi, 3 tatar öldürülmüş, 744 nəfər yaralanmışdı. 400 nəfər

---

[62] İbayev,V.Ə. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq müstəvisində / V.Ə.İbayev. –Bakı: Elm, –2006. –696 s.

[63] Чернявский, С. И. Новый путь Азербайджана / С.И. Чернявский. –Москва: Молодая гвардия, –2002. –350 с.

[64] Sultanov, O.B. 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində Azərbaycanda siyasi mübarizə / O.B. Sultanov. – Bakı: Maarif, – 1995. – 232 s.

[65] Постановление Верховного Совета СССР «Об установлении особой формы правления в НКАО в Азербайджанской ССР » (13 января 1989 г.) // Государственный Архив Азербайджанской Республики, Фонд № 411, опись № 56, един. хран. 1, лист -4.

həbs olunmuş, 4 nəfər itkin düşmüşdü, 25 nəfər hərbi qulluqçu ölmüş, 283 nəfər yaralanmışdı[66].

1991-ci ilin avqustun 19-21-də Dövlət Fövqəladə Vəziyyət Komitəsi təşkil edən qiyamçılar demokratik qüvvələrin qarşısında dayana bilmədilər. Azərbaycanda da demokratik qüvvələr DFVK-nin əleyhinə çıxdılar. Lakin A.Mütəllibov DFVK-ni müdafiə edərək ciddi siyasi səhvə yol verdi[67]. Azərbaycan Respublikası Ali Soveti avqustun 30-da "Mürtəce qüvvələrin 1991-ci il avqustun 19-da Konstitusiyaya zidd dövlət çevrilişi haqqında" xüsusi bəyanat verdi[68].

Heydər Əliyev imperiyanın qorunub saxlanmasına çalışan qüvvələrə, ilk növbədə Kommunist Partiyasına və Sovet dövlətinə açıq etirazını bildirdi və 1991-ci il iyulun 19-da Kommunist Partiyasından çıxdı[69]. 1991-ci il avqustun 26-dan Naxçıvan Muxtar Respublikası ərazisində Azərbaycan KP fəaliyyəti dayandırıldı. A.Mütəllibov Moskvanın da tələbi ilə təcili olaraq prezident seçkiləri keçirmək qərarına gəldi. 1991-ci il sentyabrın 8-də keçirilmiş prezident seçkilərində A.Mütəllibov guya 98,5% səslə Azərbaycan Respublikasının ilk prezidenti seçildi[70]. Demokratik qüvvələr bu seçkini baykot etməyə çağırmışdır. Naxçıvan MR-nın Ali Məclisi prezident seçkilərini Muxtar Respublika ərazisində ləğv etmişdir. Bakıda seçicilərin 30 faizə qədəri seçki məntəqələrinə gəlməmişdilər.Lakin seçkilərin nəticələri saxtalaşdırıldı və A. Mütəllibov yenidən prezident "seçildi"[71].

1991-ci il avqustun 8-də Ermənistandakı sonuncu azərbaycanlı

---

[66] Джамал, С. Карабах в административно-политической системе Российской империи в XIX – начале XX века // Карабах (Международный Азербайджанский журнал), – 2005. № 2-3, – с.47

[67] Заявление Азеринформа // Бакинский рабочий. – 1991. 23 августа, – с.1.

[68] Mürtəce qüvvələrinin 1991-ci il avqustun 19-da Konstitusiyaya zidd dövlət çevrilişi haqqında ARAS bəyanatı (30 avqust 1991-ci il) // Azərbaycan Respublikası Ali Sovetinin arxivi, Fond № 2941, siyahı № 1a, iş № 260, vərəq - 1.

[69] SSRİ Nazirlər Kabinetinin partiya təşkilatına // Azadlıq qəzeti. – 1991 26 iyul. – s.8.

[70] Сообщение Центральной Избирательной Комиссии Азербайджанской Республики об итогах выборов президента АР // Бакинский рабочий. –1991,18 сентября. – с.1.

[71] XX əsr Azərbaycan tarixi. Ali məktəblər üçün dərslik. /Prof.T.T. Vəliyevin ümumi red.ilə. –Bakı: Təhsil, – 2009. – 560 s

kəndi – Nivədi kəndinin sakinləri öz torpaqlarından qovulmuşdular. 1988-1991-ci illər ərzində Ermənistanda 185 azərbaycanlı yaşayan kənddən və digər yaşayış məntəqələrindən 230 min azərbaycanlı qovuldu. 13 min ev, 165 kolxoz və sovxoz əmlakı, mal-qara talandı, 225 nəfər öldürüldü,1154 nəfər yaralandı[72].

Demokratik qüvvələrin tələbi ilə 1991-ci il avqustun 30-da Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında Bəyannamə qəbul edildi.

1991-ci il oktyabrın 9-da Azərbaycan Respublikasının Ali Soveti "Azərbaycan Respublikası Silahlı Qüvvələri haqqında"[73], oktyabrın 18-də isə Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya aktı qəbul etdi. Heydər Əliyev artıq 1991-ci il sentyabrın 4-də Naxçıvan Ali Məclisinin sədri seçilmişdi[74].

1991-ci ildən sonra Qarabağda öz hərbi missiyasını bitirən rus ordusunda mənəvi deqradasiya təhlükəsi real idi. Xankəndində qalan 366-cı alayın rus millətindən olan hərbçiləri dağılmışdılar. Alayın erməni hərbi qulluqçuları isə bütün silahları ələ keçirərək "DQR"-in hərbi hissələrinə qoşuldular[75].

1991-ci il sentyabrın 21-22-də B.Yeltsin və N. Nazarbayev Bakı, Xankəndi və İrəvanda oldular və Qarabağ probleminin həllində öz vasitəçilik xidmətlərini təklif etdilər. Sülh tənzimlənməsinin davamı sentyabrın 23-də Jeleznovodskda B. Yeltsin, N. Nazarbayev, A. Mütəllibov, L. Ter-Petrosyanın, Dağlıq Qarabağın erməni və azərbaycanlı icmalarının iştirakı ilə keçirilən görüşdə baş tutdu. Burada imzalanan kommünikedə münaqişə zonasından hərbi qüvvələrin çıxarılması, yerli əhalinin mərhələli şəkildə geri qaytarılması, girovların geri qaytarılması, kommunikasiyaların açılması,

---

[72] Mustafazadə, T.T. "Erməni məsələsindən" erməni terrorizminə / T.T.Mustafazadə. – Bakı: Turxan. NPB, – 2016.–140 s.

[73] "Azərbaycan Respublikası Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikası qanununun qüvvəyə minməsi qaydası barədə ARAS qərarı (9 oktyabr 1991-ci il) // Azərbaycan Respublikası Ali Sovetinin arxivi, Fond № 2941, siyahı № 1a, iş № 263, vərəq - 1.

[74] Azərbaycan tarixi: [7 clddə] / Məs.red. T.B. Qaffarov. – Bakı: Elm, – VII cild. – 2008. – 688 s.

[75] Касатов, А. Сама не своя. Российская армия за рубежом // –Москва: Столица, –1992. –№ 48, – с.1-4

münaqişənin tənzimlənməsi üzrə dərhal danışıqların başlanılması nəzərdə tutulurdu[76].

Rusiya geosiyasi simasını saxlamaqa cəhd edirdi. 1992-ci il mayın 15-də Daşkənddə kollektiv təhlükəsizlik haqqında imzalanan müqavilə məhz bu məqsədləri güdürdü. Müqaviləni on dövlət imzaladı - Rusiya, Belorusiya, Ermənistan, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Moldaviya, Tacikistan, Türkmənistan və Özbəkistan.

AXC tərəfindən Ermənistana təhdidlərin artdığı və Naxçıvanda vəziyyətin gərginləşdiyi bir vaxtda Rusiyanın dövlət katibi G.Burbulis və müdafiə naziri P.Qraçov Yerevana səfər edərək Ermənistanla kollektiv təhlükəsizlik məsələlərini müzakirə etdilər. Bu o demək idi ki, Rusiya Ermənistanı tək qoymayacaqdır[77].

İran da Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında özünün ilk vasitəçilik təşəbbüsünü 1992-ci ilin martında irəli sürdü. 1992-ci il mayın 6-8-də Tehranda Azərbaycan Respublikası parlamentinin sədri Y.Məmmədov, Ermənistan prezidenti L. Ter-Petrosyan və İran İslam Respublikasının prezidenti Əli Əkbər Haşimi Rəfsəncaninin görüşü keçirildi və regionda beynəlxalq hüquq və BMT Nizamnaməsinin prinsipləri əsasında sabitliyin bərpa edilməsi barədə birgə bəyannamə imzalandı[78]. Lakin bəyannamənin mürəkkəbi qurumamış mayın 8-də erməni silahlı qüvvələri Şuşanı, mayın 18-də isə Laçını işğal etdilər[79].

Azərbaycan müstəqillik qazanan kimi Türkiyə ilə diplomatik-siyasi münasibətlərə xüsusi diqqət verməyə başladı. 1990-cı ilin yanvarından başlayaraq Azərbaycanla Türkiyə arasında iqtisadi və ticarət əlaqələrinin inkişafına dair müxtəlif müqavilələr imzalanmağa başlandı. 1991-ci il noyabrın 11-də Azərbaycanın müstəqilliyini ilk

---

[76] Ваал де, Т. Черный сад. Армения и Азербайджан между миром и войной / Т. де Ваал. –Москва: Политическая энциклопедия, – 2003. –391 с.

[77] Səfərov, P.Ş. 90-cı illərinin I yarısında Azərbaycanın beynəlxalq vəziyyəti və xarici siyasəti / P.Ş. Səfərov. – Bakı: ADPU-nun nəşri, – 1999. 117 s.

[78] О встрече президентов Азербайджанской Республики, Исламской Республики Иран и Республики Армения (8 мая 1992 г.) // Архив Министерства Иностранных Дел Азербайджанской Республики, Фонд № 28, опись № 21, дело № 15, лист – 313.

[79] Mirbəşiroğlu, E. Müasir terrorizm və beynəlxalq təhlükəsizlik problemi / E.Mirbəşiroğlu. – Bakı: Elm və Təhsil, – 2017. – 80 s.

olaraq tanıyan Türkiyə 1992-ci ilin yanvarında ölkəmizlə diplomatik münasibətlər qurdu.Rəsmi Ankara Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üçün BMT və ATƏT çərçivəsində xeyli diplomatik səylər göstərirdi. 1993-cü ilin mayında Türkiyə ABŞ və Rusiya Federasiyası ilə birgə Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə xüsusi plan hazırladı. Lakin bu diplomatik fəallıq ABŞ prezidenti B.Klinton, Rusiya prezidenti B.Yeltsin, Fransa prezidenti F.Mitteranla telefon söhbətləri, ATƏT-in o dövrdəki sədri olan İsveç nümayəndəsinə və ATƏT-in Minsk qrupunun sədri İtaliya nümayəndəsinə müraciətlərlə məhdudlaşdı[80].

1991-ci ildə müstəqilliyini elan edən Azərbaycan Respublikası beynəlxalq təşkilatlara, BMT-yə və dünya dövlətlərinə müraciət edərək demokratiya, azadlıq və bərabərlik prinsiplərinin əsas strateji yolu olduğunu bildirmiş və BMT-yə daxil olmaq istəyini ifadə etmişdi. 1992-ci ilin martın 2-də Azərbaycan BMT-yə üzv qəbul edildi[81]. BMT-nin Təhlükəsizlik Şurası ATƏT-in və Rusiyanın səylərini dəstəkləyirdi (BMT TŞ-nın 822 /29 aprel 1993/, 853 / 29 iyul 1993/, 874 /14 oktyabr 1993/ saylı qətnamələri)[82]. Lakin Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə BMT-nin təhlükəsizlik Şurası döyüşən tərəflərin heç birinə qarşı diplomatik sanksiyalar tətbiq etməmişdi.1992-ci il martın 24-də ATƏT-in Nazirlər Şurası Helsinki-də çağırılmış fövqəladə iclasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hərtərəfli tənzimlənməsinə nail olmaq üçün Minsk qrupunun yaradılması haqqında qərar qəbul etdi[83].

İkinci fəslin **“XX əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanda siyasi qarşıdurmanın daha da kəskinləşməsinin xarici amilləri”** adlanan ikinci yarımfəslində əsasən Rusiya və İran faktorunun cəbhədə vəziyyətin kəskinləşməsində oynadığı rol önə

---

[80] Де Пау Ф. Политика Турции в Закавказье // Спорные границы на Кавказе под. ред. Бруно Коппитерса. –Москва: Весь мир, –1996. – с.199-212

[81] Seyidova, S.M. Ermənistanın Azərbaycana qarşı təcavüzü və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində beynəlxalq təşkilatların mövqeyi / S.M. Seyidova. – Bakı: ADPU, –2014. – 411 s.

[82] Abdullayev, E.İ. Dağlıq Qarabağ problemi beynəlxalq hüquq müstəvisində / E.İ. Abdullayev. – Bakı: Təhsil, – 2004. – 216 s.

[83] Yenə orada. S. 98

çəkilmişdir.

1991-ci il oktyabrın 3-də ölkə prezidenti və demokratik qüvvələrin liderlərinin görüşündə Milli Şura yaradılması haqqında qərar qəbul edildi. Noyabrın 26-da Ali Sovet Milli Şura haqqında qanuna yenidən baxdı. Və onun səlahiyyətlərini məhdudlaşdıran bir sıra maddələri dəyişdirdi. Paritet əsasında 25 nəfər "demblok" nümayəndələrindən və 25 nəfər keçmiş nomenklatura nümayəndələrindən ibarət Milli Şura yaradıldı[84].

1991-ci il dekabrın 8-də Rusiya, Ukrayna və Belorusun dövlət başçıları "Müstəqil Dövlətlər Birliyi" (MDB) yaradılması haqqında müqavilə imzaladılar. [85].

1992-ci ilin yanvar-fevral aylarında Kərkicahan, Qeybalı, Malıbəyli, düşmən əlinə keçdi. Xocalı və Şuşanın mühasirəsi getdikcə daralırdı. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni qoşunları Xankəndində yerləşən, keçmiş 4-cü ordunun 366-cı alayının fəal dəstəyi ilə güclü artilleriya hazırlığından sonra Xocalı üzərinə hücum etdi. Şəhərdə qalan əhalinin demək olar ki, hamısı öldürüldü və ya əsir götürüldü. Xocalı qırğını XX əsrin ən böyük faciələrindən biri oldu[86]. Xocalı faciəsi ölkədə siyasi gərginliyi daha da artırdı. Ali Sovetin martın 5-6-da keçirilən fövqəladə sessiyasında A.Mütəllibov səhvlərini etiraf edərik istefa verməyə məcbur oldu[87].

1992-ci ilin may ayının 8-də Tehranda İRİ-nin prezidenti Ə.Rəfsəncanin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan rəhbərlərini görüşü başa çatan kimi Şuşanın ermənilər tərəfindən işğal edilməsi xəbəri gəldi.

1992-ci il mayın 14-də A.Mütəllibovu yenidən hakimiyyətə gətirmək məqsədi ilə əvvəlcədən hazırlanmış ssenariyə uyğun olaraq

---

[84] Sultanov, O.B. 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində Azərbaycanda siyasi mübarizə / O.B. Sultanov. – Bakı: Maarif, – 1995. – 232 s.

[85] Kəlbizadə, E.H. Ermənistan və İran İslam Respublikası arasında hərbi-təhlkəsizlik sahəsində əlaqələr. Qafqazşünaslığın aktual problemləri / E.H. Kəlbizadə.–Bakı: ADMİU-nun mətbəəsi, – 2021. – 280 s.

[86] Ağamalıyeva, V.Ş. Xocalı XX əsrin müsəlman soyqırımıdır / V.Ş. Ağamalıyeva. – Bakı: Günəş, – 2017. – 143 s.

[87] 5 mart 1992-ci il tarixli fövqəladə sessiyasının stenoqramı // Azərbaycan Respublikası Ali Sovetinin arxivi, Fond № 2941, siyahı № , iş №, s. 1.

Ali Sovetin fövqəladə sessiyası işə başladı. Ertəsi gün müxalifət qüvvələri prezident sarayını tutdular. Mayın 18-də AXC liderlərindən biri olan İ.Qəmbərov alternativsiz Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi[88].

İkinci fəslin **"1992-1993-cü illərdə Azərbaycan Respublikasında baş verən siyasi proseslərin Rusiya, İran və Türkiyə ilə münasibətlərə təsiri"** adlanan üçüncü yarımfəslində 1992-1993-cü illərdə istər ölkənin ictimai-siyasi həyatında, istərsə də Qarabağ cəbhəsində baş verən dramatik hadisələrdən, Rusiya, İran və Türkiyənin bu proseslərdə birbaşa və dolayısı iştirakından danışılır.

1992-ci il iyunun 7-də alternativ əsaslarla aparılan seçkilər nəticəsində Xalq Cəbhəsinin sədri Ə. Elçibəy Azərbaycan Respublikasının prezidenti seçildi.

Rusiya informasiya vasitələrinin məlumatına görə, guya 1992-ci ilin avqustunda "DQR"-də keçirilmiş ümumi səfərbərlik nəticəsində 30 minlik yüksək döyüş qabiliyyətli fədailər ordusu yaradılmışdı[89].

1992-ci il iyunun 12-də Azərbaycan ordusu Ağdərədə irimiqyaslı hücuma başladı. İyul-avqust aylarında milli ordu hissələri, Tərtər və Ağdam bölgələrinin könüllü dəstələri Ağdərə rayonunu, Goranboy bölgəsinin düşmən əlinə keçmiş torpaqlarını azad edildi və Ermənistanla Yuxarı Qarabağ arasındakı "dəhliz"i xeyli daraltmağa müvəffəq oldular. Avqustun sonları üçün Azərbaycan ordusu hissələri Yuxarı Qarabağın 40%-ni azad edə bildilər.

1992-ci il sentyabrın 3-də Böyük Britaniyanın keçmiş baş naziri M. Tetçer Bakıya gələrək Azərbaycan hökuməti ilə "Britiş Petroleum" və "Statoyl" şirkətləri arasında "Çıraq" və "Şahdəniz" yataqlarının işlənilməsi haqqında müqavilənin imzalanması törənində iştirak etdi[90].

Azərbaycanın MDB-yə daxil olması məsələsi ölkə parlamentində

---

[88] Milli Məclisin 15-16 may 1992-ci il tarixli iclasının stenoqramı // Azərbaycan Respublikası Ali Sovetinin arxivi, Fond № 2941, siyahı № , iş №, s. 1.

[89] Пусть солдаты немного поспят // Московские новости. – 1993, 6 июня. – с.2-3

[90] Məmmədov, Ə. Müstəqil Azərbaycan dövlətinin bərpası və möhkəmləndirilməsi uğrunda mübarizə (80-ci illərin sonu- 1997-ci il) /Ə. Məmmədov. – Bakı: Elm, – 1999. – 669 s.

üç dəfə: 1991- 92-ci illərdə A.Mütəllibovun hakimiyyətdə olduğu dövrdə[91], 1992-ci ilin yayında Ə. Elçibəyin dövründə, 1993-cü ilin payızında Heydər Əliyev ölkə rəhbərliyinə qayıtdıqdan sonra müzakirə edilmişdir.

Azərbaycan ordusunun komandanlığı 1993-cü ilin yanvarı üçün Qarabağın şimalında iri miqyaslı hücum əməliyyatı planlaşdırırdı. Hərbi-səhra komandiri S. Hüseynovun rəhbərlik etdiyi 1200 nəfərlik korpusun hücumu təxribat nəticəsində uğursuz oldu [92].

1993-cü il fevralın ortalarında Ermənistan rəhbərliyinin tərtib etdiyi planda Laçın dəhlizinin genişləndirilməsi qərara alınmışdı. Martın 26-da Ermənistanın Zod və Vardenis istiqamətlərindən Kəlbəcər rayonuna hücum başlanmışdı[93]. Aprelin 2-də ölkədə fövqəladə vəziyyət elan olundu. Aprelin 3-də Kəlbəcər işğal edildi.

ABŞ, Fransa və Rusiyanın Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında ardıcıl mövqe tutmaması Ermənistanı daha da həyasızlaşmağa, beynəlxalq və regional qurumlara meydan oxumağa ruhlandırırdı.

Ermənistanın təcavüzkarlığını birmənalı və qəti şəkildə pisləyən yeganə təşkilat İslam Konfransı Təşkilatı oldu. 1993-cü ilin aprelində İKT-nın Xarici İşlər Nazirlərinin XXI konfransı Ermənistanı işğalçı dövlət adlandırdı və işğal edilmiş torpaqların azad edilməsini tələb etdi. Üstəlik 1992-ci ilin iyunundan Naxçıvan MR-ə elektrik enerjisi verilməsi Ermənistan tərəfindən dayandırıldı, qatarların hərəkəti tamamilə kəsildi, Naxçıvan MR blokada vəziyyətinə düşdü. Lakin Heydər Əliyev çox ağır şəraitdə Naxçıvanı müvəffəqiyyətlə idarə edirdi. 1992-ci ilin martında S. Dəmirəllə danışıqlardan sonra Naxçıvana ərzaq, toxum, lazımi avadanlıq göndərildi. Naxçıvan MR Türkiyənin elektrik şəbəkəsinə qoşuldu. Naxçıvan ilə Türkiyə arasında

---

[91] Azərbaycan Respublikası mətbuat xidmətinin bəyanatı //Azərbaycan qəzeti. – 1992, 15 dekabr.– s.2.

[92] Seyidova, S.M. Ermənistanın Azərbaycana qarşı təcavüzü və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində beynəlxalq təşkilatların mövqeyi / S.M. Seyidova. – Bakı: ADPU, –2014. – 411 s.

[93] Azərbaycan Respublikası Milli Məclisinin 27 aprel 1993-cü il tarixli iclasının stenoqramı // Azərbaycan Respublikası Ali Sovetinin arxivi, Fond № 2941, siyahı № 1, iş № 191, vərəq-130.

“Ümid” körpusu açıldı. Naxçıvana İrandan da elektrik enerjisi verilməyə başlandı[94]. 1992-ci il oktyabrın 16-da Azərbaycanın 91 nəfər nüfuzlu ziyalısı - alimlər, müəllimlər, jurnalistlər, hüquqşünaslar, həkimlər, siyasətçilər, əmək adamları “Səs” qəzeti vasitəsilə Heydər Əliyevə Qurtuluş hərəkatına rəhbərlik etməsi barədə rəsmi müraciət etdi. Heydər Əliyevin rəhbərliyi ilə 1992-ci il noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyası (YAP) təsis edildi[95].

1993-cü ilin əvvəllərində ölkədə davam edən ictimai-siyasi gərginliyin kulminasiya nöqtəsi Milli Məclisin 19 fevral 1993-cü il tarixli qapalı iclası oldu. Müdafiə naziri vəzifəsindən istefa verdi. Ağdərədəki uğursuzluğa görə Ali Baş Komandanın 22 fevral 1993-cü il tarixli əmri ilə 2-ci ordu korpusunun komandanlığından azad edilmiş S. Hüseynov Gəncəyə göndərilən hökumət komissiyasının üzvlərini həbs etdirdi[96].

1993-cü il iyunun 4-nə keçən gecə respublika rəhbərliyi “Tufan” planını həyata keçirməyə başladı. Hərbi qiyamı yatırmaq üçün Gəncəyə 3 minədək canlı qüvvə, güclü hərbi texnika yeridildi. Ümumilikdə 80 nəfərədək adam həlak oldu, 135 nəfər yaralandı. 1200 döyüşçü, respublika prokuroru qiyamçılar tərəfindən girov götürüldü. İyunun 5-6-sı hökumət qoşunlarının qiyamçıların tərəfinə keçməyə başlaması vəziyyəti ağırlaşdırdı[97]. İyunun 8-də Ə. Elçibəy həmvətənlərinə müraciət edərək vətəndaş sülhünü bərpa etməyə çağırdı.

İyunun 9-da Heydər Əliyev Bakıya gəldi. Yaranmış vəziyyətdə, iyunun 13-də Milli Məclisin sədri İ. Qəmbər istefa verməyə məcbur oldu[98].

---

[94] XX əsr Azərbaycan tarixi. Ali məktəblər üçün dərslik. /Prof.T.T. Vəliyevin ümumi red.ilə. –Bakı: Təhsil, – 2009. – 560 s

[95] Mirbəşiroğlu, E. Müasir terrorizm və beynəlxalq təhlükəsizlik problemi / E.Mirbəşiroğlu. – Bakı: Elm və Təhsil, – 2017. – 80 s.

[96] Gəncə şəhərində baş vermiş hadisələri tədqiq edən deputat istintaq komissiyasının arayışı (7 iyul 1993-cü il) // Azərbaycan Respublikası Ali Sovetinin arxivi, Fond № 2941, siyahı № 1, iş №153, vərəq-12.

[97] Чернявский, С. И. Новый путь Азербайджана / С.И. Чернявский. –Москва: Молодая гвардия, –2002. –350 с.

[98] Azərbaycan Respublikası Milli Məclisinin 13 iyun 1993-cü il tarixli iclasının stenoqramı // Azərbaycan Respublikası Ali Sovetinin arxivi, Fond № 2941, siyahı № 1, iş № 204, vərəq-1.

Dissertasiyanın üçüncü fəsli “**1993-cü ilin ikinci yarısı – 1995-ci illərdə Azərbaycanın tarazlaşdırılmış xarici siyasətə keçməsi və Rusiya, İran və Türkiyə ilə münasibələrdə yeni mərhələ**” adlanır.

**“Azərbaycanda ictimai siyasi sabitliyin bərqərar olması və Rusiya, İran, Türkiyə ilə bərabər səviyyəli tərəfdaşlıq yaratmaq istiqamətində görülən tədbirlər”** adlanan birinci yarımfəsildə yeni hakimiyyətin xarici siyasətdə, xüsusilə Rusiya, İran və Türkiyə istiqamətində köklü dəyişikliklərə nail olmaq səylərindən bəhs edilir.

1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi[99]. İyunun 18-nə keçən gecə prezident Ə. Elçibəy Bakını tərk edib Naxçıvan MR-ə, doğulduğu Kələki kəndinə getdi. İyunun 24-də Azərbaycan Respublikasının Milli Məclisi Ə.Elçibəyin Azərbaycan Respublikası Prezidenti vəzifələrini icra edə bilməməsi və onun səlahiyyətlərinin Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevə keçməsi haqqında qərar qəbul etdi.

Ölkə daxilində də ciddi siyasi hadisələr baş verirdi. S. Hüseynov qərargahı Gəncədə yerləşən hərbi idarə yaratdı. Burada o, sabiq müdafiə naziri R. Qazıyev, iyunun 15-də Lənkəranda hərbi dəstələrin köməyi ilə hakimiyyəti devirmiş Ə.Hümbətovla birlikdə cəbhədə vəziyyəti ağırlaşdırmaq, siyasi çaxnaşma yaratmaq, dövlət başçısını hakimiyyətdən əl çəkdirmək və özü də olmasa A.Mütəllibovu yenidən hakimiyyətə gətirmək planları hazırlamağa başladı.

Avqustun 7-də Azərbaycanın cənub bölgəsində “Talış Muğan Respublikası” yaradıldığı elan edildi. Separatçı qurumun “hökuməti” Rusiya, İran, Belorus dövlətlərinə və BMT-yə müraciət edərək onu tanımağı xahiş etdi.Təbii ki, hadisələrin belə inkişafında Rusiya və İrandakı müəyyən qüvvələrin dəstəyinin də rolu sezilməkdə idi.

Ağdam uğrunda şiddətli döyüşlər S.Hüseynovun dəstələri seyrçi mövqe tutmuşdular. İyulun 23-də, 43 gün davam edən döyüşlərdən sonra Ağdam şəhəri süqut etdi. Avqustun 25-də Cəbrayıl və Füzuli, avqustun 31-də Qubadlı rayonları işğal olundu. Oktyabrın

---

[99] Azərbaycan Respublikası Milli Məclisinin 15 iyun 1993-cü il tarixli iclasının stenoqramı // Azərbaycan Respublikası Ali Sovetinin arxivi, Fond № 2941, siyahı № 1, iş № 205, vərəq - 1.

27-də Zəngilanın süqutu ilə Azərbaycanın Qarabağdan cənubda yerləşən rayonları işğal edilmiş oldu[100]. SSRİ ilə İran arasında keçmiş dövlət sərhəddinin 200 kilometri separatçı Dağlıq Qarabağ rejiminin nəzarətinə keçdi. Qarabağın şərqində geniş "bufer zona"sı yaradılmış oldu[101]. Belə vəziyyətin yaranması Rusiyanın XİN A.Kozırevin hələ 1992-ci ilin aprel ayında Azərbaycan rəhbərliyinə təklif etdiyi "DQR"ətrafinda təhlükəsizlik zolağı yaratmaq planı ilə üst üstə düşürdü.Bütün bunlara baxmayaraq ölkənin yeni rəhbərliyi Rusiya və İran istiqamətlərinsə aparılan siyasətə yenidən baxmağa qərarlı idi.

**"Rusiya, İran, Türkiyə ilə münasibətlərdə tarazlaşdırılmış siyasətə keçid və bu ölkələrlə əlaqələrdə yeni dövrün başlanması"** adlanın ikinci yarımfəsidə 1993-cü ilin iyununda Heydər Əliyevin böyük siyasətə qayıdışından sonra ölkənin xarici siyasət konsepsiyasında paritetləri gözləmək əsasında regional dövlətlərlə bərabər səviyyəli tarazlaşdırılmış diplomatiyaya keçiddən bəhs edilir.

Heydər Əliyev başda olmaqla Azərbaycan nümayəndə heyətinin 1993-cü il 5-8 sentyabr tarixində Moskvaya səfəri regionda ənənəvi geosiyasi maraqları olan Rusiya-İran-Türkiyə üçbucağı arasında tarazlaşdırılmış diplomatiya siyasətinin başlanğıcını qoydu[102].

Heydər Əliyevin RF Prezidenti B.Yeltsin, RF Ali Sovetinin sədri R. Xasbulatov, Nazirlər Sovetinin sədri V. Çernomırdin, XİN-i A. Kozırev, müdafiə naziri P. Qraçov və digər rəsmi şəxslərlə danışıqlarda tərəflər Azərbaycan-Rusiya münasibətlərini yaxşılaşdırmağın zəruriliyini vurğuladılar. Tərəflər bildirməşdi ki, ölkələr arasında siyasi, iqtisadi sahələrdə əlaqələrin inkişafı üçün bütün imkanlardan istifadə olunması, bölgədə və beynəlxalq aləmdə birgə fəaliyyətin və əməkdaşlığın genişləndirilməsində qarşılıqlı səy

---

[100] Məmmədov, Ə. Müstəqil Azərbaycan dövlətinin bərpası və möhkəmləndirilməsi uğrunda mübarizə (80-ci illərin sonu- 1997-ci il) /Ə. Məmmədov. – Bakı: Elm, – 1999. – 669 s.

[101] Чернявский, С. И. Новый путь Азербайджана / С.И. Чернявский. –Москва: Молодая гвардия, –2002. –350 с.

[102] Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən ARAS sədri H.Ə. Əliyevin bəyanatı // Azərbaycan Respublikası Ali Sovetinin arxivi, Fond № 2941, siyahı № 1, iş № 152, vərəq - 1.

göstərməlidir[103].

İranın xarici işlər naziri Ə.Vilayəti BMT-nin Baş katibi B. Qaliyə müraciət edərik erməni təcavüzünü dayandırmamaqda onu qınamışdı. İran İslam Respublikasının prezidenti Ə. Rəfsəncani 1993-cü il oktyabrın 28-də Bakıya rəsmi səfəri zamanı "Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluq və əməkdaşlıq prinsipləri haqqında memorandum", "gəliş və gedişin adi xarici pasportlarla sadələşdirilməsi barədə memorandum", "Azərbaycan Respublikası və İran İslam Respublikası arasında siyasi məsləhətləşmələr barədə protokol" imzalanmışdır[104].

Türkiyə prezidenti S.Dəmirəl 1993-cü ilin ortalarından Azərbaycan rəhbərliyinin Rusiya-İran-Türkiyə üçbucağı arasında tarazlaşdırılmış siyasət yeritməsini dəstəklədi[105].

1993-cü ilin noyabrında ermənilər bütün cəbhələrdə müqavimətə rast gəldilər. Dekabrın 19-da Milli ordu hissələri Xocavənd rayonunun ərazisinə daxil oldular. 1994-cü il yanvarın 5-də Horadiz qəsəbəsi, 22 kəndi düşməndən azad edildi. Ordumuz Cəbrayıl rayonunun bir hissəsini, Kəlbəcərin bir çox kəndlərini və yaşayış məntəqələrini azad edərək Kəlbəcər-Laçın yolunun tunelə qədərki hissəsini nəzarət altına aldılar[106]. 1994-cü ilin fevralında Kəlbəcərdə uğurla başlanan "Murovdağ" əməliyyatı məğlubiyyətlə nəticələndi. 1995-ci il martın 16 da Moskvada Rusiya və Ermənistan arasında 25 il müddətinə müqavilə imzalandı. Bu müqaviləyə görə Ermənistan Respublikasındakı Rusiya hərbi düşərgələrinə hərbi baza statusu verildi[107].

---

103 Yenə orada. s.196

104 Konstitusiya və qanunvericilik şöbəsi "Azərbaycan Respublikası və İran İslam Respublikası arasında dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri haqqında" 23 oktyabr 1993-cü ildə Bakıda imzalanmış Memorandum // Azərbaycan Respublikası Ali Sovetinin arxivi, Fond № 2941, siyahı № 9, iş nömrəsiz, 119 vərəq, vərəq - 4

105 MDB-yə münasibət barədə Azərbaycan Respublikası Milli Məclisinin 3 sentyabr 1993-cü il tarixli iclasının stenoqramı // Azərbaycan Respublikası Ali Sovetinin arxivi, Fond № 2941, siyahı № 1, iş № 220, vərəq - 24.

106 Məmmədov, N.R. Dağlıq Qarabağ gerçəklikləri: soyqırımı, terror, deportasiya, işğal (XX yüzillik) / N.R. Məmmədov. – Bakı: Təhsil, – 2009. – 272 s.

107 Dadaşova, R.B Azərbaycan Respublikası BMT Təhlükəsizlik Şurasının daimi

Aprelin 5-də Rusiya XİN-nin keçirdiyi brifinqdə münaqişənin nizamlanmasının üç mərhələdən ibarət ola biləcəyi vurğulandı ilk mərhələdə hərbi əməliyyatların dayandırılması, atəşkəsin əldə olunması mütləqdir. Sonra qoşunlar hərbi əməliyyatların gedişində işğal olunmuş ərazilərdən çıxarılmalı, kommunikasiyalar işə salınmalı, qaçqınlar qayıtmalıdırlar. Yalnız üçüncü mərhələdə Dağlıq Qarabağın statusu haqqında siyasi danışıqların aparılması məqsədəuyğundur. Mayın 9-da Bişkek müşavirəsinin yekun sənədi imzalandı. 1994-cü il mayın 12-dən etibarən atəşkəs qüvvəyə mindi[108].

1994-cü ilin yayında daxili işlər naziri XTPD-nin buraxılması barədə əmr verdi. R. Cavadov əmri yerinə yetirməkdən imtina etdi. Nazir Heydər Əliyevin göstərişi ilə əmri ləğv etdi[109]. Sentyabrın sonunda R. Qazıyev, Ə.Hümbətov və digərləri MTN-nin təcridxanasından qaçırıldılar.R.Cavadov tərksilah olmaqdan imtina etdi və Ali Sovetin sessiyasının çağırılmasını tələb etdi. Heydər Əliyevlə görüşən R. Cavadov özlərini müdafiə etməyə məcbur olduqlarını bildirdi. Oktyabrın 7-də Gəncə üzərində nəzarəti bərpa edildi. 100-dək qiyamçı həbs edildi[110]. S. Hüseynov baş nazir vəzifəsindən çıxarıldı, onun "Milli qəhrəman" adı ləğv edildi və barəsində "Vətənə xəyanət" maddəsilə cinayət işi qaldırıldı[111].

Lakin R. Cavadov öz ambisiyalarından əl çəkmirdi.1995-ci il martın 12-dən 13-ə keçən gecə Bakıda Cavadovun dəstəsi silahlanaraq öz bazalarında toplanmağa başladılar. Qazaxda və Ağstafada qanlı toqquşmalar baş verdi.R.Cavadov Heydər Əliyevin və R. Quliyevin

---

üzvləri ilə əməkdaşlığı / R.B. Dadaşova. – Bakı: ADMİU-nun mətbəəsi, – 2021. – 344 s.

108 Məmmədov, N.R. Dağlıq Qarabağ gerçəklikləri: soyqırımı, terror, deportasiya, işğal (XX yüzillik) / N.R. Məmmədov. – Bakı: Təhsil, – 2009. – 272 s.

109 Чернявский, С. И. Новый путь Азербайджана / С.И. Чернявский. –Москва: Молодая гвардия, –2002. –350 с.

110 Svyataçovski, T. Rusiya və Azərbaycan sərhədyanı bölgə keçid dövründə / (ingiliscədən tərcümə) –Bakı: Xəzər Universiteti nəşriyyatı, – 2000. – 327 s.

111 Azərbaycan Respublikasında dövlət çevrilişi cəhdinin qarşısının alınması və Azərbaycan dövlətçiyinin möhkəmləndirilməsi haqqında" Azərbaycan Respublikasının Milli Məclisinin qərarı (22 mart 1995-ci il) // Azərbaycan Respublikası Ali Sovetinin arxivi, Fond № 2941, siyahı № 1, iş № 313, vərəq - 10.

istefasını tələb etdi. Əks-təqdirdə onları qan töküləcəyi ilə hədələdi[112]. Martın 16-da Qazax və Ağstafada Cavadovun tərəfdarları tərksilah edildilər. Bakıda martın 17-si səhər saat 9-da qiyamçılar ağ bayraq qaldırdılar. Yaralanmış R. Cavadov vəfat etdi.Ölkədə siyasi sabitlik qəti bərqərar edildi.

Üçüncü fəslin **"Rusiya,İran və Türkiyənin Azərbaycanla bağlı diplomatiyasında yeni yanaşma meyllərinin yaranması"** adlı üçüncü yarımfəslində müəllif yarımfəslində hər üç dövlətin diplomatiyasında ölkəmizə qarşı müsbət meyllərin yaranmasının və güclənməsi barədə danışılır.

1994-cü il yanvarın 3-də Bakıya gələn Rusiya Federasiyası Sərhəd qoşunlarının komandanı A. Nikolayev Azərbaycan-İran və Azərbaycan-Türkiyə sərhədlərinin Rusiya ilə birgə qorunmasını təklif etdi. Heydər Əliyev göstərilən sərhədlərdə heç bir problem olmadığını, Azərbaycan-Ermənistan sərhəddinin Azərbaycan üçün daha təhlükəli olduğunu qeyd edərək, iki ölkə arasında sərhəd probleminin digər məsələlərlə kompleks şəkildə həllinin vacibliyini vurğuladı[113].

1995-ci il iyul və sentyabr aylarında Azərbaycanın İrandakı səfiri Ə.Səfərlinin İran XİN-nin müavini M. Vaizi və Azərbaycan XİN H.Həsənovun İranın Bakıdakı səfiri Ə.Biqdeli ilə görüşlərində mehriban qonşuluq və dostluq əlaqələri saxlamaq istəyi vurğulanmışdır.Eyni zamanda tərəflər bildirmişlər ki hər iki ölkənin mətbuatında qonşu dövlətlər arasında mehriban qonşuluq əlaqələrini bərqərar olmasına xələl gətirən yazıların dərc olunması yolverilməzdir[114].

1993-1995-ci illərdə Türkiyə və Azərbaycan arasında iqtisadi-siyasi və mədəni əlaqələrin inkişafında böyük irəliləyiş baş verdi.qısa

---

112 Azərbaycan Respublikasında dövlət çevrilişi cəhdinin qarşısının alınması və Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi tədbirləri haqqında. // Azərbaycan qəzeti. – 1995, 28 mart. – s. 1.

113ШакирзадеН.Содружествонезависимыхгосударств(СНГ).Азербайлжанская Республика во внешнеполитических и внешнеэкономических процессах(1991-2006)./Н.Шакирзаде-Баку:Сада,-2007.-512 с.

114 Azərbaycan Respublikasının İran İslsm Respublikası ilə yazışmaları(1993-1997-ci illər)//Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin arxivi,Fond№ 28,siyahı№ 21,iş№38,-122 vərəq.

müddətdə Azərbaycanın xarici ticarət dövriyyəsində Türkiyə ikinci yerə çıxdı.ticarət dövriyyəsinin həcmi 250 milyon ABŞ dolları təşkil edirdi.Azərbaycanda 800-ə dək türk şirkəti fəaliyyət göstərirdi.Ölkəyə 500 milyon dollar sərmayə yatırılmışdır.1995-ci ildə Azərbaycanda xarici firmalar və birgə müəsisələrə yatırılan sərmayələrin 45,6 faizi Türkiyənin payına düşürdü[115].

1994-cü ildə Azərbaycanla Ermənistan arasında atəşkəs elan edildikdən sonra türkiyənin hava məkanını Ermənistanın üzünə bağlayan H-50 dəhlizi yenidən açıldı.türkiyə ermənistanla əlaqələrə yumşaqlıq gətirərək dağlıq Qarabağ münaqişəsini nizamlamaq,özü ətrafında bəzi Qərb ölkələri tərəfindən yaranmış gərginliyi səngitmək istəyirdi[116].

**Dissertasiyanın IV fəsli "90-cı illərin birinci yarısında Azərbaycan respublikasının neft strategiyası və xəzərin karbohidrogen ehtiyatlarının işlənməsi üzrə yaradılmış beynəlxalq neft konsorsiumunda Rusiyanın, Türkiyənin iştirakı və İran amili" adlanır.**

Bu fəslin **"Azərbaycan Respublikasının neft strategiyasının formalaşmasında beynəlxalq və regional güc mərkəzlərinin rolu və Rusiya, Tükiyə, İranın siyasəti"** adlı yarımfəsildə ölkənin neft sənayesinin yaranmasının tarixinə qısa ekskurs edilir, Bakı nefti ətrafında formalaşan beynəlxalq və regional maraqlardan danışılır.

Neft dünya geosiyasətini müəyyənləşdirən əsas amillərdən biridir.1960-cı illərin əvvəlləri neft uğrunda mübarizə tarixində yeni mərhələnin başlanğıcı sayılır. 1960-cı ildə 13 neft ölkəsini özündə birləşdirən OPEK təşkilatı yarand'[117].

1918-ci ildə Azərbaycanın müstəqilliyinin elan olunması ilə xalqımız öz tarixində ilk dəfə olaraq öz sərvətinin sahibi oldu. Lakin Sovet hakimiyyəti illərində Bakı neftinin Azərbaycanın əlindən

---

[115] Ağacan K.Bağımsızlığın 10 yılında Gürcistan:Abd-nin Kafqaziyada kalesi mi? Stratejik Analiz // -Ankara:aylıq uluslararası ilişkiler və strateji araşdırmalar dergisi,-2001.c.1,ay11,-s.32-38

[116] Marifli A.M.Dağlıq Qarabağ münaqişəsi Azərbaycan-Türkiyə münasibətlərində:1980-ci iilərin sonları- 2000-ci illərin əvvəli / A.Marifli,-Bakı: Elm,-2020.-304 s.

[117] URL: https://ria.ru/20110608/385802164.html

alınmasına hüquqi don geyindirmək üçün Əmək və Müdafiə Şurası 1921-ci il avqustun 11-də qəbul etdiyi qərarla respublikamızın tabeliyində olan “Azneftkom”a Bakı neftinin beynəlxalq bazarlara çıxarıb satmasını qadağan etdi[118].

1941-45-ci illər ərzində Azərbaycan ölkəyə 75 milyon ton neft, 22 milyon ton benzin və başqa neft məhsulları vermişdir[119].1949-cu ildə açıq dənizdə, Bakı şəhərindən 100 km məsafədə, o zaman üçün unikal yataq sayılan Neft Daşlarında vuran fontan dənizdə neftçıxarmanın yeni mərhələsinin başlanğıcı oldu.

1991-ci ilin yayında Xəzər neftinin istismarı üzrə keçirilmiş tenderin qalibi ABŞ-ın “AMOKO” şirkəti oldu. Konsorsiuma “Yunokal”, “Makdermott”, “Ramko” şirkətləri, habelə, “Britiş petroleum” – “Statoyl” alyansı daxil idilər. 1992-ci il oktyabrın 1-də “Britiş petroleum” – “Statoyl” alyansı ilə “Çıraq” və “Şahdəniz” yataqları üzrə, daha sonra isə “Pennzoyl” – “Remko” alyansı ilə “Günəşli” yatağı üzrə razılaşmalar əldə edildi[120]. 1993-cü ilin mayında “Günəşli”, “Çıraq”, “Azəri” yataqları üzrə yekun sənədlərinin hazırlanması prosesi başa çatdı.

1993-cü ilin yayında Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə Azərbaycanın daxili və xarici siyasəti,o cümlədən, neft strategiyası daha məqsədəuyğun xarakter aldı.1994-cü ilin fevralında C. Meycor və Heydər Əliyev Londonda neft islahatı sahəsində hökumətlərarası müqavilə imzaladılar Müqaviləyə əsasən Böyük Britaniya və Azərbaycan “Britiş Petroleum” və ARDNŞ-in öz üzərinə götürdükləri öhdəliklərin yerinə yetirilməsinin təminatçısı rolunda çıxış edirdilər.

İkinci yarınfəsil **“Xəzərin Azərbaycan sektorunda neft-qaz yataqlarının işlənməsində Rusiya,Türkiyə şirkətlərinin iştirakı və İranın yanaşması”** adlanır. Bu paraqrafda Avroatlantik məkanın iki neft şirkətləri ilə yanaşı Rusiya, Türkiyə və İranın da müvafiq şirkətlərinin Xəzərin Azərbaycan bölməsində kəşfiyyat-istehsal işlərin

---

[118]Мурадалиева, Э.Б. Кровь земная-нефть Азербайджана и история. /Э.Б.Мурадалиева. -Баку: Мутарджим, -2005-256 с.

[119] XX əsr Azərbaycan tarixi. Ali məktəblər üçün dərslik. /Prof.T.T. Vəliyevin ümumi red.ilə. –Bakı: Təhsil, – 2009. – 560 s

[120] Qasımlı, M.C. Azərbaycan Respublikasının xarici siyasəti 1991-2003: [2 cilddə] / M.C. Qasımlı. – Bakı: Mütərcim, – c.1. –2015. – 648 s.

cəlb olunmasından bəhs edilir.

Sentyabrın 20-də üç il davam edən danışıqlardan sonra Azərbaycan "British Petroleum", "Amoko", "Unokal", "Pennzoil", "Ramko", "McDermott", "Turkish Petroleum" və Rusiyanın "LUKoyl" şirkətlərinin daxil olduqları Qərb kompaniyaları konsorsiumu ilə 8 mld. dollarlıq "Əsrin müqaviləsi" adlanan neft sazişi imzaladı[121].

Müqavilənin imzalanması zamanı Rusiya Federasiyası nümayəndəsi S. Puqaç iştirak etdi, lakin sentyabrın 22-də Rusiyanın XİN A. Kozırev də imzalanmış bu müqavilənin hüquqa zidd olduğunu və Rusiya hökumətinin onu tanımayacağı haqqında rəsmi bəyanat verdi. Rusiyanı təmsil edən "LUKoyl" şirkətinin müqavilədə pay nisbəti 10 faiz, gəlirlərin bölünməsində isə 2,5 faiz idi və "LUKoyl" müqavilədən Azərbaycan tərəfini çıxmaqla mənfəət əldə edəcək üçüncü neft şirkəti idi[122].

İran da bu müqaviləyə maraq göstərirdi. 1994-cü ilin noyabrında Azərbaycan İranı "sakitləşdirmək" üçün "neft müqaviləsində"nda iştirakını təmin etməyə söz verdi. Lakin 1995-ci ilin aprelində İranın neft konsorsiumunda iştirakı məsələsi ABŞ-ın təzyiqi ilə gündəmdən çıxarıldı, ona ayrılmalı olan pay isə Türkiyəyə və ABŞ-ın Ekson şirkətinə verildi. 1995-ci il aprelin 21-də İran İslam Respublikasının Bakıdakı müvəqqəti işlər vəkili M.Tahirini qəbul edən Heydər Əliyev Azərbaycan-İran dostluğunun sarsılmazlığını bəyan edərək İranın gələcəkdə bu sahəyə cəlb edilə biləcəyini vurğuladı. İran tərəfinə bildirildi ki, Azərbaycan "Şahdəniz" yatağının birgə işlədilməsində maraqlıdır.

Türkiyənin də Azərbaycanın neft strategiyasında mühüm və özünəməxsus rolu var idi. Türkiyə neft ehtiyatlarından öz payını almağa və neftin Aralıq dənizi sahillərinə nəql olunmasına nail olmağa çalışırdı. "Botaş"ın rəhbəri Gökhan Yardım açıqlamasında bildirdi ki, "Bakı-Ceyhan layihəsi təkcə iqtisadi yox, həmçinin, misli görünməyən

---

121 Султанов, Ч.А. Нефтегазовые стратегии и политика в XXI веке / Ч.А. Султанов. – Баку: Нурлар, – 2008. – 704 с.

122 Səfərov, P.Ş. 90-cı illərinin I yarısında Azərbaycanın beynəlxalq vəziyyəti və xarici siyasəti / P.Ş. Səfərov. – Bakı: ADPU-nun nəşri, – 1999. 117 s.

siyasi məsələdir"[123]. 1993-cü ilin martında Azərbaycan və Türkiyə hökumətləri arasında neft borusu üzrə ilk razılaşma imzalandı. Azərbaycanın xam nefti (perspektiv variantda isə, həm də Qazaxıstan nefti) bu boru xətti ilə Ceyhan limanına nəql olunmalı idi[124]. 1995-ci ilin aprelində Türkiyənin Baş naziri T.Çillərin Azərbaycana səfəri zamanı Beynəlxalq Neft Konsorsiumunda Türkiyənin payının 1,75 %-dən 6,75 %-ə qədər artırılması haqqında saziş imzalandı[125].

1995-ci il oktyabrın 9-da Azərbaycan hökuməti və ABƏŞ ilkin Xəzər neftini iki istiqamətdə dünya bazarına çıxarmaq barədə qərar qəbul etdilər: 1.Qərb marşrutu: Gürcüstanın Qara dəniz Sahilindəki Supsa limanına çəkiləcək neft kəməri; 2. Şimal marşrutu: Çeçenistan ərazisindən Rusiyanın Qara dənizdəki Novorossiysk limanına çəkiləcək neft kəməri.

1995-ci il dekabrın 8-də Türkiyənin prezidenti S. Dəmirəl və Azərbaycanın prezidenti Heydər Əliyevin imzaladıqları birgə bəyanatda da tərəflər Xəzər dənizinin Azərbaycan sektorundan çıxarılacaq ilkin neftin iki istiqamətdə dünya bazarına çıxarılması haqqında Azərbaycan Respublikasının və neft konsorsiumunun qərarından məmnun olduqlarını qeyd edərək, əsas neft kəmərinin Türkiyənin Ceyhan limanına yönəldilməsi barədə istəklərini təsdiq etdilər[126].

Üçüncü yarımfəsil **"Heydər Əliyevin həyata keçirdiyi neft strategiyasının regional güclərin Azərbaycan siyasətində yaratdığı köklü dəyişikliklər"** adlanır. Bu bölmədə həyata keçirilən uğurlu neft

---

[123] Əliyev, İ.H. Azərbaycan nefti dünya siyasətində siyasətində:[5 cilddə]/ İ.H. Əliyev. – Bakı: Azərbaycan, – c.4. –1997. – 262 s.

[124] Великое Национальное Собрание Турции. Внешняя политика. Краткий обзор. Папка: Азербайджано-турецкие отношения (1992-1994.) // Архив Министерства Иностранных Дел Азербайджанской Республики, Фонд №28, опись № 31, дело № 18, лист – 214.

[125] Tansu Çillərin Azərbaycana rəsmi səfəri. Qovluq: Azərbaycan-Türkiyə əlaqələri // Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin arxivi, Fond №28, siyahı № 21, iş № 18, vərəq- 214.

[126] Türkiyə Prezidenti Süleyman Dəmirəlin Azərbaycana rəsmi səfəri başa çatdı // Azərbaycan qəzeti. – 1995, 12 dekabr. – s. 1, 2,3

127 Mehdiyev Ə.Əsrin müqaviləsi:Azəpbaycan neft strategiyasının təməl daşı /Ə.Mehdiyev-Bakı: Turxan NPB,-2014.-248 s.

siyasətinin Azərbaycan tək bölgədə deyil, dünyada strateji əhəmiyyətinin artmasına və nüfuzunun yüksəlməsinə səbəb olması barədə danışılır.

Azərbaycan və Rusiya nümayəndə heyətləri arasında neftin Bakı-Novorossiysk marşrutu üzrə nəqli ətrafında da qızğın müzakirələr aparıldı. 11 iyul 1997-ci ildə Rusiyanın Yanacaq və enerci nazirliyi ilə ARDNŞ və Çeçenistanın YUNKO kompaniyaları arasında üçtərəfli təsərrüfat sazişi imzalandı. Sənədə əsasən neft Çeçenistan ərazisindən keçən Bakı-Qroznı-Tixoretsk-Novorossiysk neft borusu ilə nəql edilməli idi.[127]

1994-1995-ci illərdə İran dağlıq Qarabağ probleminin nizamlanması üzrə bir sıra diplomatik təşəbbüslər göstərmişdi. Azərbaycan hakimiyyəti İranı Ermənistana fəal yardım göstərməkdə ittiham edirdi. Azərbaycanı yalnız sözdə dəstəkləyərək"müsəlman qardaşlığından" bəhs edən İran Ermənistanla siyasi-iqtisadi əlaqələrini durmadan inkişaf etdirirdi.

Azərbaycan-Türkiyə əlaqələri daim yüksələn xətt üzrə inkişaf edirdi. 1997-ci il mayın 5-də Azərbaycan və Türkiyə strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında Deklarasiya imzaladılar. [128]

Sentyabrında Türkiyənin xarici işlər naziri İ.Cemin Azərbaycana səfəri zamanı Türkiyə Azərbaycanın NATO-ya inteqrasiyası və d.məsələsində öz öhdəsinə götürdü. 1998-ci il üçün Türkiyə Azərbaycanın xarici ticarət partnyorları arasında birinci yerə çıxdı. Azərbaycanın xarici ölkələrlə mal dövriyyəsinin 21 faizi Türkiyənin payına düşürdü.

Sovet İttifaqının dağılması və yeni suveren dövlətlərin meydana çıxması prinsipial şəkildə yeni bir şərait yaratdı. Bu şərait Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəqiq ifadəsi ilə "dünya iqtisadiyyatının transmilliləşməsi, qlobalaşması, hərbi-iqtisadi güc mərkəzlərinin yeni bölgüsü", ümumilikdə, "Xəzər regionunun dünyada vəziyyətinin, yeni müstəqil dövlətlərin rolunun və əhəmiyyətini əsaslı surətdə dəyişməsi" ilə xarakterizə olunurdu[129].

---

[128] Azərbaycan-Türkiyə: dostluq, qardaşlıq, strateji əməkdaşlıq //Azərbaycan qəzeti. - №94 – 1997, 13 may. – s.- 1-2

[129] Алиев, И.Г. Каспийская нефть Азербайджана /И.Г. Алиев. –Москва: Известия, –2003. –712 с.

**Nəticə.** XX əsrin 90-cı illərində müstəqil regiona çevrilməsindən sonra bölgədə dövlətlərin strateji maraqları formalaşmağa başladı. Cənubi Qafqazda strateji maraqların toqquşmasının əsas istiqamətlərini aşağıdakı kimi müəyyənləşdirmək olar: ABŞ-Rusiya, ABŞ-İran, Türkiyə-Rusiya, Türkiyə-İran. Ermənistan Rusiyaya meyl edirdi Azərbaycan müstəqiliyinin ilk illərində Türkiyə tərəfə güclü meyl nümayiş etdirsə də, Ankara ilə Moskva arasında manevr edirdi.

Yuxarıda deyilənləri qruplaşdıraraq aşağıdakı nəticəyə gəlmək olar:

1) Zaman dəyişir, tarix dəyişir amma Azərbaycan ətrafında coğrafi reallıq  və geosiyasi durum dəyişmir. Azərbaycan mövcud olduqca ətrafındakı Rusiya, İran və Türkiyə coğrafi və geosiyasi ücbucağının təsirini hiss edərək özünün xarici siyasət konsepsiyasında bu amili nəzərə almağa məcburdur.

2) 90-cı illərin əvvəlində hakimiyyətdə olan iqtidarın səriştəsiz xarici siysasəti,mövcud reallığı düzgün dəyərləndirə bilməyərək sadəlövcəsinə yalnız Türkiyəyə və onun tisalında Qərbə hədsiz meyl edətək Rusiya və İran amilini inkar etməsi ölkə daxilində, Dağlıq Qarabağ ətrafinda hadisələrin gərginləşməsinə, Azərbaycan əleyhinə Rusiya, İran, Ermənistan oxunun yaranmasına, torpaqların işğalına və ölkənin az qala vətəndaş müharibəsinə sürüklənməsinə gətirib çıxarmışdır.

3) Yalnız xalqın tələbi ilə hakimiyyətə qayıtmış Heydər Əliyevin səyləri nəticəsində ölkədə siyasi sabitliyin bərqərar olmasının əsası qoyulmuş,cəbhədə atəşkəsə nail olunmuş, yeni xarici siyasət konsepsiyası işlənib hazırlanmışdır.

4) Heydər Əliyev ölkənin gələcək inkişafının təminatçısı olan iqtisadi islahatların və  neft strategiyasının əsasını qoymuşdur. Böyük olkələri təmsil edən bütün maraqlı tərəflərlə yanaşı Rusiya və Türkiyə şirkətləri də Xəzərin neft və qaz ehtiyatlarının hasil edilməsinə cəlb edilmiş,İranla umumi anlaşma əldə olunmuşdur.

5) Şərqi Avropanın ucqar nöqtəsi sayılan Azərbaycan ayrı ayrı Avropa dövlətləri və strukturları ilə tərəfdaşliq müqavilələri bağlamış, müxtəlif qurumların üzvi olmuşdur. ABŞ-la təmaslar intensivləşmişdir. Eyni zamanda Şərq və müsəlman dünyasının bir parçası kimi Azərbaycan Çin və Hindistan kimi böyük dövlətlərlə

yanaşı ,İslam Konfransı Təşkilatına daxil olan ölkələrlə,o cümlədən ərəb dünyası ilə münasibətlər yaratmışdır.

6) Belə şaxələndirilmiş və çoxqütblü xarici siyasət konsepsiyası Azərbaycana onun ənənəvi müttəfiqi olan Türkiyə ilə münasibətlərə xələl gətirmədən Rusiyanı və İranı rəqibdən tərəfdaşa, yaxud ən azi stabil qonşuya çevirməyə imkan vermişdir.

7) 1993-1995-ci illərdə Azərbaycanın regionun bu üç dövətinin təmsil oluduğu Ruisiya,İran,Türkiyə geosiyasi üçbucağı arasinda tarazlaşdırılmış xarici siysət yürütməyə başlaması ölkəmizin milli maraqlarına tam uyğun olmuş, onun sonralar baş verən mürəkkəb siyasi proseslər nəticəsində böyük dövlətlərin və regional güclərin qarşıdurma mərkəzinə çevrilməsinin qarşısını almışdır.

Qeyd edilməlidir ki, 2020-ci ilin sentyabr-noyabr aylarında baş vermiş 44 günlük qalibiyyətli Qarabağ savaşı və onu yekunlaşdıran 9 noyabr üçtərəfli (Rusiya-Azərbaycan-Ermənistan) bəyannamə yeni Bakı-Ankara-Moskva geopolitik xəttinin təşəkkülü demək idi. Xarici siyasətdə milli maraqlarımıza uyğun və perspektivdə diplomatiyamızın uğurlarının təmin edilməsinə hesablanmış müəyyən tövsiyyələr nəticədə öz əksini tapmışdır.

**Dissertasiyanın mövzusu ilə bağlı müəllifin aşağıdakı əsərləri dərc olunmuşdur:**

1. 90-cı illərinin birinci yarısında Azərbaycan Rusiya, İran, Türkiyə münasibətlərində. Tezis. Ali pedaqoji məktəblərdə Humanitar və ictimai elmlərin tədqiqi və tədrisinə dair II Respubilka elmi konfransının materialları. Bakı, 27-28 aprel, 1997-ci il. s. 135.

2. 90-cı illərdə Azərbaycanın beynəlxalq vəziyyəti və xarici siyasəti. Metodik vəsait. Bakı, 1999, 117 səh.

3. 90-cı illərin ikinci yarısında Azərbaycanda siyasi sabitliyin bərqərar olması və Rusiya, İran, Türkiyə ilə münasibətində tarazlaşdırılmış siyasətə keçilməsi. Məqalə. Nəsrəddin Tusinin 800 illik yubileyinə həsr edilmiş Respublika elmi konfransının materialları. Bakı, 2-3 aprel 2001-ci il. s. 35-37.

4. Азербайджан-Россия: на перекрёстке веков. Məqalə. ADPU-nun xəbərləri, Bakı, 2003. № 1-2 s. 359-363.

5. Azərbaycanın neft strategiyasının formalaşmasında Rusiya-İran-Türkiyə amilinin təsiri Məqalə.ADPU-nun Xəbərləri, Bakı,

2007, №6, s.107-111.

6. Azərbaycan-qərb əməkdaşlığı və İran-Rusiya alyansı. Məqalə ADPU-nun Xəbərləri, Bakı, 2008, № 6,s. 107-111.

7. Azərbaycan Respublikası Rusiya, İran və Türkiyənin geosiyasi maraqlarında. Monoqrafiya. Bakı 2011-ci il, Elm və təhsil, 264 s.

8. Азербайджан в российско-иранско-турецких отношениях в первой половине 90-х годов XX века. Статья. Научные Итоги 2011 года: Достижения, проекты, гипотезы, Сборник материалов I Международной научно-практической конференции, Новосибирск: Издательство, 26 декабря, 2011, с.43-46.

9. XX əsrin 90-cı illərinin əvvəllərində İranın regiondakı strateji məqsədlərinin Azərbaycan da ictimai-siyasi vəziyyətə təsiri. Məqalə Gəncə Dövlət Universiteti, Gəncə, Elmi Xəbərlər, 2012, №3, s.77-83.

10. XX əsrin 90-cı illərinin I yarısında Rusiya, İran və Türkiyənin beynəlxalq münasibətlər sisteminə Azərbaycanın daxil olmasının iqtisadi-siyasi şərtləri. Məqalə. Tarix və onun problemləri, Bakı, 2015, №4, s.207-213.

11. XX əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanda ictimai siyasi vəziyyət və Rusiyanın regiondakı strateji maraqları. Məqalə. Tarix, insan və cəmiyyət., 2015. 2 (13), s. 46-54.

12. I Dünya müharibəsi ərəfəsində rus-erməni hərbi-siyasi birliyinin yaradılması. Məqalə. Beynəlxalq elmi konfransın materialları, Naxçıvan, 5-6 iyun 2015,s.320-323.

13. Нагорно-Карабахская проблема и энергетическая стратегия Азербайджана во взаимоотношениях с Россией, Ираном и Турцией в первой половине 90-х гг. XX в.Статья Кавказ и Мир, Тбилиси, 2016. №21,с.77-80.

14. Rus-erməni müttəfiqliyi və Xocalı faciəsi. Məqalə. Azərbaycan Milli EA.Tarix İnstitutu Elmi əsərlər, Bakı, 2017. c. 67 s.26-35.

15. Азербайджанская Республика в геополитическом треугольнике: Россия-Иран-Турция в первой половине 90-х гг. XX в. Статья Південно український національний педагогічний університет імені К.Д. Ушинского, Одесса, 2017,

Выпуск – 6. с.40-43

16. XX əsrin 90-cı illərinin I yarısında Azərbaycan Rusiyanın Cənubi Qafqaz strategiyasında. Məqalə. Naxçıvan Dövlət Universiteti Elmi əsərləri, ictimai elmlər seriyası, Naxçıvan, 2018, №6(95), s.81-85.

17. XX əsrin 90-cı illərinin əvvəlləri Azərbaycan Türkiyənin xarici siyasətində. Məqalə. Pedaqoji Universitetin Xəbərləri, Bakı, 2018, c.66, №3, s.159-166

18. XX əsrin 90-cı illərinin birinci yarısında Azərbaycan İranın xarici siyasət strategiyasında Məqalə. Azərbaycan Milli EA. Tarix İnstitutu Elmi əsərlər, Bakı, 2019, №78. s.159-167.

19. XX əsrin 90-cı illərinin I yarısında Azərbaycan Respublikasının Rusiya, İran, Türkiyə ilə Xəzərin enerji ehtiyatlarının işlənməsi sahəsində əməkdaşlığı. Məqalə.Tarix, insan və cəmiyyət, Bakı, 2019, №1(24).s.56-64

20. XX əsrin 90-cı illərinin birinci yarısında Azərbaycan Respublikasının Rusiya, İran, Türkiyə ilə regional və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı: problemlər, maraqlar və ziddiyyətlər. Məqalə. Bakı Universitetinin Xəbərləri, Humanitar elmlər seriyası, Bakı, 2019, №3.s.129-140

21. XX əsrin 90-cı illərinin I yarısında Azərbaycanda geosiyasi maraqları bərqərar etmək uğrunda Rusiya-İran-Türkiyə rəqabəti. Məqalə Gəncə Dövlət Universiteti. Elmi Xəbərlər, Gəncə, 2019, №1. s.284-288

22. XX əsrin 90-cı illərinin əvvəllərində Qarabağ münaqişəsi və ölkədəki ictimai-siyasi vəziyyət Azərbaycan Respublikasının Rusiya, İran və Türkiyə ilə hökumətlərarası– parlamentlərarası müzakirələrində. Məqalə. Tarix, insan və cəmiyyət, Bakı, 2019, №4(27),s.21-31.

23. Азербайджанская Республика в отношениях с России с Турцией в первой половине 90-х гг. XX в. Статья. 5th International Social Research and Behavioral Sciences Symposium, Tbilisi, 11-12 October, 2019. c.221-226.

24. Азербайджанская Республика в центре геополитического треугольника «Россия-Иран-Турция» в первой половине 90-х годов XX века Статья Современная научная

мысль, Москва, 2019, №3, с.178-85.

25. Армяно-азербайджанский конфликт и нефтяная политика Азербайджана во взаимоотношениях с Россией, Ираном и Турцией в первой половине 90-х гг. XX в. Статья V Международной научно-практической конференция. Наука и образование в современном мире: вызовы XXI в., Нур-Султан: 10-12 декабря, 2019 г. с.135-138.

26. XX əsrin 90-cı illərinin birinci yarısında Azərbaycan-Rusiya münasibətləri: problemlər və ziddiyyətlər Məqalə. Tarix, insan və cəmiyyət, Bakı, 2020, №1(28), s.123-135.

27. 1990-ların ilk yarısında Türkiyenin Güney Kafqasiya stratejisinde Azerbaycan Cümhuriyyeti. Derpi Park Makale.Türk Kültür ve Medeniyyet Araştırmaları Dergisi, İstanbul, 2020, c.I, s.2 s.46-55.

28. Азербайджанская Республика в отношениях с Россией, Ираном и Турцией в первой половине 90-х гг. XX в. Статья Вопросы истории, Москва, 2020. №4, с.174-183.

29.Армянская фальсификация законов СССР и международных принципов в 1988-1991 гг.Статья.Вестник Бакинского Университета.Серия гуманитарных наук. Баку, 2022. № 1, с.96-104

30.Армянская манипуляция законами и приципами. Статья.Конференция Международного Карабахского Форума "Арсак:история и современность"была инициирована и организована Организацией Освобождения Карабаха при поддержке Государственного комитета Азербайджанской Республики по работе с диаспорой 6 декабря 2021 года в Баку.Баку:Адильоглы,-2022.- с.131-139.

31.XX əsrin 90-cı illərinin birinci yarısında Naxçıvan MR-in Azərbaycanın İranla iqtisadi nəqliyyat əlaqələrinin iştirakının bəzi problemləri. Məqalə.Bakı Universitetinin Xəbərləri, humanitar elmlər seriyası,Bakı,2023,№2,97-106 s.

Dissertasiyanın müdafiəsi 28 yanvar 2025-ci il tarixində saat 11:00 Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Dövlət Universitetinin Tarix fakültəsi nədzində nəzdində fəaliyyət göstərən Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı 1148, akademik Zahid Xəlilov küçəsi 23

Dissertasiya ilə BDU-nun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 27 dekabr 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 13.12.2024
Kağızın formatı: 60x84 $^{1/16}$
Həcm: 94832
Tiraj: 100 ədəd